

**Zəngəzur dəhlizinin bərpası ilə regional sabitlik təmin ediləcək**

4

# "Biz idman sahəsində də qabaqcıl ölkələrin sırasındayıq və bu liderliyi qorumalıyıq"



2

Səs
№ 050 (6491) 18 mart 2022-ci il. Qiymэti 60 qəpik

# Ermənistanın qorxunc haldan da pis vəziyyəti



Rusiyaya qarşı sanksiyalar Ermənistan cəmiyyətinin yuxusunu ərşə çəkib. Xüsusilə də gah Rusiyanın, gah Qərbin tərəfinə keçən ermənilər çaşbaş vəziyyətdədirlər. İndi erməniləri daha çox narahat edən, əlalxüsus Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsi, nüfuzunun artması, bütün dünyada söz sahibinə çevrilməsidir və onlar qorxurar ki, Azərbaycanın yaratdığı...

8




# Əməkdaşlıq memorandumu imzalanıb

Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. SİA-nın verdiyi məlumata görə, sənədin imzalanmasında məqsəd ADA Universiteti və MEDİA Agentliyi arasında müştərək layihələrin reallaşdırılması istiqamətində...

7

# Laçın dəhlizi bağlanır:

## Regionun iqtisadi xilası Azərbaycanın qərarından asılıdır




# Jerar Depardyö İstanbulda balıqçı gəmisində yaşayacaq



16



# Rusiya uduzdu - Putin geri çəkilir



## Şəkər və taxılın qiyməti qalxacaq?

7

"Yaxın günlərdə ölkəmizdə nə taxılın, nə də şəkərin qiymətində artım gözlənilir". Bunu "Xəzər Xəbər"ə müsahibəsində...



## "Azərbaycan alternativ və bərpaolunan enerji təchizatçılarından biri olacaq"

11

"Dünən ölkəmizin həyatında əlamətdar hadisə baş verdi. Belə ki, dünyada çox tanınmış və təcrübəli şirkət olan Birləşmiş...

# "Biz idman sahəsində də qabaqcıl ölkələrin sırasındayıq və bu liderliyi qorumalıyıq"

## *Prezident İlham Əliyev Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib*

***Dünən Prezident İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış edərək qeyd edib ki, Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atıblar, 16 medal qazanılıb, onlardan 7-si qızıl medaldır: "Bu, çox böyük nailiyyətdir. Xüsusilə nəzərə almalıyıq ki, komanda hesabında bizim komandamız birinci yerə layiq görülmüşdür. Bu münasibətlə, ilk növbədə, idmançıları və onların məşqçilərini, Güləş Federasiyasını təbrik edirəm. Bu, bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər.***

Mən bilirəm ki, idmanın bütün növlərində, o cümlədən güləş idman növündə ildən-ilə rəqabət artır, müxtəlif ölkələrdə güclü idmançılar üzə çıxır və artan rəqabət şəraitində Avropada birinci olmaq, əlbəttə, böyük nailiyyətdir. Dövlət Himnimiz yeddi dəfə səsləndirildi. Əlbəttə ki, həm idmançılar, həm idman mütəxəssisləri, bütün Azərbaycan vətəndaşları bu qələbəni böyük qürur hissi ilə qarşılayıblar."

Dövlətimizin başçısı qeyd edib ki, güləş Azərbaycanda idmanın bütün növləri arasında xüsusi yerə malikdir. Güləş bizim milli idman növümüzdür. Bütün dövrlərdə güclü güləşçilərimiz olubdur, həm sovet dövründə və xüsusilə müstəqillik dövründə: "Bizim güləşçilərimiz Azərbaycanı müxtəlif yarışlarda ləyaqətlə təmsil ediblər. Bizim bir çox Olimpiya, dünya, Avropa çempionlarımız var. Əlbəttə, güləşin ənənələri Azərbaycanda kifayət qədər güclüdür və şadam ki, indi gənc nəsil bu ənənələri davam etdirir. Əminəm ki, bu yaxınlarda medallar qazanmış idmançılar arasında gələcəyin Avropa, dünya və Olimpiya çempionları olacaqlar. Nəsildən-nəslə keçən bu təcrübə, bilik, səriştə əminəm ki, Azərbaycanı bundan sonra da dünya miqyasında aparıcı güləş ölkələrindən birinə çevirəcəkdir. Hər halda Avropada gənclər arasında biz birinciyik və mənə verilən məlumata görə, çempionatda 34 ölkə iştirak edirdi. Bunu nəzərə alaraq, bir daha qeyd etmək istəyirəm ki, bu, doğrudan da böyük nailiyyətdir. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, bu gün mən sizi dəvət etmişəm ki, şəxsən özüm sizi təbrik edim və ümidvar olduğumu bildirim ki, gələcəkdə də siz eyni əzmkarlıqla ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz.

Son vaxtlar Güləş Federasiyasında gedən proseslər narahatlıq doğururdu və durğunluq hiss olunurdu. Güləş Federasiyasında idarəetmə mexanizmi zəifləmişdi, faktiki olaraq özbaşınalıq hökm sürürdü. Əlbəttə ki, bu, nəticələrə də mənfi təsir göstərmişdir və bu, təbiidir. Ona görə Güləş Federasiyasının rəhbərliyinin dəyişdirilməsi zəruri idi, bu, baş verdi. Əminəm ki, federasiya indi həm buraxılmış bütün nöqsanları aradan qaldıracaq, vəziyyəti təhlil edəcək, - mənə məlumat verilib ki, artıq bu işlərə start verilib, - əlbəttə ki, idmançılara - həm gənclər, həm də böyüklər arasında çıxış edən idmançılara lazımi şərait yaradacaqdır. Mən Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçiləndən qarşıya məhz bu vəzifəni qoydum ki, biz idmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik. Bax, bu iki əsas amil bizim böyük uğurlarımızın əsasını təşkil edirdi. Ona görə əminəm ki, Güləş Federasiyası Gənclər və İdman Nazirliyi ilə, məşqçilərlə birlikdə düzgün addımların atılmasına nail olacaq və bugünkü qələbəni mən görülən bu işlərin ilk təzahürlərindən biri kimi qəbul edirəm.



### Prezident İlham Əliyev:

> *"Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı"*

Bizim idmançılar uzun illərdir Azərbaycanı dünyada təbliğ edirlər. Mən dəfələrlə idman ictimaiyyəti ilə görüşlər əsnasında deyirdim ki, idman bizim dövlət siyasətimizdir və idman hər bir ölkənin qüdrətini əks etdirir. Çünki əgər beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında ölkələrin reytinqlərinə nəzər salsaq görərik ki, adətən inkişaf etmiş ölkələrin nümayəndələri daha da böyük uğurlar qazanırlar. Bu da təbiidir, çünki həm təlim-məşq toplanışlarının keçirilməsi, ümumiyyətlə, hazırlıq işlərinin qurulması, iqtisadi baza - bütün bu amillər önəmli rol oynayır. Əlbəttə ki, dövlət siyasəti burada aparıcı məsələdir və Azərbaycan bu ölkələrin sırasındadır. Biz nəinki iqtisadi və digər sahələrdə, idman sahəsində də qabaqcıl ölkələrin sırasındayıq və bu liderliyi qorumalıyıq. Təsadüfi deyil ki, beynəlxalq idman qurumları Azərbaycana çox böyük rəğbətlə yanaşırlar. Belə olmasaydı, Azərbaycanda iki dünya səviyyəli tədbir keçirilməzdi - həm Avropa Oyunları, həm də İslam Həmrəyliyi Oyunları. Bir ölkədə, bir şəhərdə cəmi iki il ərzində iki böyük tədbirin keçirilməsi beynəlxalq idman ictimaiyyətinin, federasiyalarının bizə olan münasibətinin əlamətidir. Biz bu yarışları yüksək səviyyədə keçirdik və idmançılarımız bizi sevindirdilər. Bizim beynəlxalq idman qurumları ilə, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya komitələri ilə sıx əlaqələrimiz var, beynəlxalq federasiyalarla sıx əlaqələrimiz var. Bu əlaqələr, əlbəttə ki, Azərbaycanda idman siyasətinin düzgün aparılmasında da bizə kömək göstərir. Ölkəmizdə keçirilmiş və bundan sonra keçiriləcək idman yarışları da müntəzəm xarakter almalıdır. Çünki ölkəmizin həm imkanları, həm Azərbaycanda qonaqpərvərlik, idman infrastrukturunun mövcudluğu sayəsində biz bütün istənilən idman yarışını keçirə bilərik. Məsələn, Avropa Oyunlarında 5 mindən çox idmançı iştirak edirdi və onların bir çoxu qeyd edirdi ki, bu Oyunlar Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilir. Yəni, bütün bu şəraiti biz yaratmışıq ki, həm idmançılar dövlətimizin şöhrətini həmişə yüksəkliklərdə saxlasınlar, həm də idman kütləvi xarakter alsın. Gənclər və idman naziri qarşısında, yeni rəhbərlik qarşısında qoyduğum vəzifələrdən biri də məhz budur - idmanın kütləviliyini təmin etmək və bütün bölgələrdə mövcud infrastrukturdan istifadə etmək. Çünki bizdə hər bir bölgədə müasir olimpiya idman kompleksləri vardır, 50-yə yaxın belə bir kompleks artıq inşa edilib və onlardan səmərəli şəkildə istifadə etməliyik. Seleksiya işi çox düzgün aparılmalıdır. Bölgələrdə bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə olaraq, onları düzgün seçmək və idmana, idman bölmələrinə cəlb etmək lazımdır.

Əlbəttə ki, tanınmış idmançılarımızın nümunəsi, Olimpiya, dünya, Avropa çempionlarının nümunəsi gənclər üçün də bir stimul olmalıdır. Onlar da bizim tanınmış idmançılar kimi olmağa çalışmalıdırlar. Bilirəm ki, bizim tanınmış, görkəmli idmançılarımız da həm öz idman uğurları ilə, həm də ki, davranışları ilə nümunə göstərirlər. Mən çox şadam ki, Azərbaycan idman ictimaiyyəti və bizim idmançılarımız, onların böyük əksəriyyəti həyatda da nümunədirlər və belə də olmalıdır. Bir sözlə, mən güləş idman növünün perspektivlərini çox müsbət qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə həm Olimpiya Oyunlarında, həm də dünya çempionatlarında bizim uğurlarımız kifayət qədər olacaq.

Bir məsələyə də toxunmaq istərdim. Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək. Hər halda, xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amili çox böyük rol oynayır. Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissləri daim yüksək olsun. Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bizim əlbəttə ki, güclü Ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir.

Biz uzun illər - 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarda məğlub edilmiş ölkə kimi təmsil olunurduq. Bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni, biz həqiqəti olduğu kimi bilməliyik və deməliyik. Bəli, bu məğlubiyyətin səbəbləri var idi, ovaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar - bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdir. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik.

Ardı Səh. 3

# "Biz idman sahəsində də qabaqcıl ölkələrin sırasındayıq və bu liderliyi qorumalıyıq"

## *Prezident İlham Əliyev Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib*



Əvvəli Səh. 2

Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq. Belə də oldu.

Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz. Siz qalib gəlmiş müzəffər xalqı təmsil edirsiniz. Əminəm ki, o arenaya çıxanda sizin ürəyinizdə mütləq bu duyğular olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq, o cümlədən İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar. Siz də beynəlxalq yarışlarda əlbəttə ki, müxtəlif ölkələrdə olursunuz. Əminəm, bəlkə də siz gənclər yox, - çünki siz təzə-təzə beynəlxalq yarışlarda iştirak etməyə başlamısınız, - amma böyüklər, məşqçilər, idman mütəxəssisləri mütləq görür ki, Azərbaycana münasibət nə dərəcədə dəyişmişdir. Çünki biz qalib ölkəni, müzəffər xalqı təmsil edirik. Biz müharibəni ləyaqətlə aparmışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Biz mülki əhaliyə qarşı vuruşmamışıq, biz binaları bombalamamışıq, biz qəddarlıqla məşğul olmamışıq. Halbuki xalqımızın ürəyində qisas hissi həmişə var idi. Çünki ermənilər tərəfindən bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və qisas hissi mütləq olmalı idi. Ancaq mən demişdim ki, düşməndən intiqamı döyüş meydanında alacağıq. Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb. Məhz buna görə düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər.

Mən bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki indi dünyada bir çox yerlərdə müharibələr gedib, gedir və əfsuslar olsun ki, gedəcək. Bu gedən müharibələrə diqqət yetirsək hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görür. Əlbəttə ki, idmançılarımız üçün bu, əlavə bir stimuldur. Çünki biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik. Siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz. Çünki bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq."

Sonra Sərbəst güləş üzrə Azərbaycan yığmasının baş məşqçisi Namiq Abdullayev, Azərbaycan Güləş Federasiyasının prezidenti Mikayıl Cabbarov çıxış edərək qeyd ediblər ki, gələcəkdə də bayrağımızı ləyaqətlə təmsil etmək üçün bizim bütün idmançılar və məşqçilər əllərindən gələni edəcəklər.

Prezident İlham Əliyev:

> *"Güləş idman növündə ildən-ilə artan rəqabət şəraitində Avropada birinci olmaq böyük nailiyyətdir"*

# Mərkəzi Seçki

## Komissiyasının iclası keçirilib



**Dünən Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən bildiriblər ki, əvvəlcə Komissiyanın 2021-ci il 3 sentyabr tarixli iclasının protokolu təsdiq olunub.**

Sonra VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Şahin Kamil oğlu Seyidzadənin deputat səlahiyyətlərinə xitam verilməsi məsələsinə baxılıb. Bildirilib ki, Milli Məclisin deputatı Şahin Seyidzadə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edildiyinə görə Azərbaycan Respublikası Konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə əsasən deputat səlahiyyətlərinə xitam verilməlidir. Mərkəzi Seçki Komissiyası qeyd olunan əsasları nəzərə alıb, qanunvericiliyə uyğun olaraq Şahin Seyidzadənin deputat səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul edib.

Daha sonra "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Qanunda nəzərdə tutulmuş sənəd nümunələrinin təsdiq olunması və Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş "Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsinə dair Qaydalar"da dəyişiklik edilməsi məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun və Seçki Məcəlləsinin tələbləri əsas götürülərək, sözügedən sənəd nümunələri təsdiq edilib və müvafiq normativ xarakterli akt son dövrlərdə qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb. İclasda, həmçinin bir sıra seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

## Bakıda Azərbaycan-Avropa İttifaqı təhlükəsizlik dialoqunun 3-cü raundu keçirilib


Hikmet Hajiyev
@HikmetHajiyev

3rd round of Azerbaijan-EU security dialogue took place in Baku. I am thankful to Enrique Mora @EnriqueMora Deputy SecGen of the European External Action Service for fruitful exchange on regional issues, energy/cyber security,combatting drug trafficking, illegal migration etc.

6:21 PM · Mar 17, 2022 · Twitter for Android

14 Retweets 2 Quote Tweets 84 Likes

Bakıda Azərbaycan-Avropa İttifaqı təhlükəsizlik dialoqunun 3-cü raundu baş tutub. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz tviter hesabında paylaşım edib.

"Görüşdə regional məsələlər, enerji, kibertəhlükəsizlik, narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və sair üzrə səmərəli mübadiləyə görə Avropa Xarici Fəaliyyət Xidmətinin Baş katibinin müavini Enrike Moraya təşəkkür edirəm", - deyə Hikmət Hacıyev bildirib.

# Zəngəzur dəhlizinin bərpası ilə regional sabitlik təmin ediləcək

**Ermənistanın işğalından azad edilən ərazilərdə aparılan yenidənqurma, bərpa-quruculuq işləri barədə açıqlama verən Prezident İlham Əliyev infrastruktur və nəqliyyat layihələrinin əhəmiyyətindən bəhs edərkən Zəngəzur dəhlizinin bərpasının əhəmiyyətini xüsusilə vurğulayır. Bildirir ki, 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndində nəzərdə tutulan Zəngəzur dəhlizinin bərpası bölgədə sabitliyin qarantıdır.**

”Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada - Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır. Bu baş tutsa, burada Ermənistan da mənfəət əldə edəcək, onlar sülhün xeyrini görəcəklər” söyləyən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını kommunikasiyalar üçün təməl adlandıran Prezident İlham Əliyevin qətiyyəti ilə bu dəhliz reallaşır. Başqa sözlə deyilsə, işğaldan azad edilmiş ərazilərdə davam etdirilən bərpa -quruculuq işlərinin tərkib hissəsi olan Zəngəzur dəhlizinin bölgə dövlətləri üçün əhəmiyyəti müxtəlif səviyyələrdə dəfələrlə qeyd olunmuş, bu kommunikasiyanın regional təhlükəsizlik üçün böyük əhəmiyyət daşıdığı diqqətə çatdırılmışdır.



**Azərbaycanla İran İslam Respublikası arasında qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması ölkəmizin növbəti təşəbbüsü olmaqla geostrateji müstəvidə yeni reallıqlar yaradır**




Bakıdan Naxçıvana istiqamətlənən təyyarələrin Ermənistan üzərindən uçmasına baxmayaraq Zəngəzur dəhlizinin reallaşmasına əngəl törədən, müxtəlif bəhanələrə əl atan Ermənistan nəinki Zəngəzur dəmir yolu və avtomobil yolunun açılmasına, ümumiyyətlə dəhliz ifadəsinə qısqanclıqla yanaşır. Amma ermənilər unutmasınlar ki, Zəngəzurun tarixi Azərbaycan torpağı olmasını bu ərazidə yerləşən, Azərbaycan toponimləri olan yer adları- Zəngilan, Zəngəzur, Zəngi çayı sözləri də sübut edir.

Geostrateji əhəmiyyətinə görə Zəngəzur təkcə dəmir və avtomobil yollarının keçəcəyi dəhliz deyil. Bu dəhliz bölgə dövlətlərinin əməkdaşlıq körpüsüdür. Gələcəkdə bu dəhlizlə Naxçıvana elektrik, təbii qaz xətlərinin çəkilməsi, enerjinin ixracı nəzərdə tutulur. Buna görə də Zəngəzur dəhlizinin bölgə ölkələri üçün əhəmiyyəti, Şərqi və Qərbi Zəngəzurun iqtisadi inkişafı üçün nəzərdə tutulan layihələr bütün bölgə dövlətlərinin maraqlarına uyğundur.

Zəngəzur dəhlizinin mənəvi əhəmiyyətini milli dəyərlərə bağlılıq baxımından açıqlayan Prezident İlham Əliyevin ”Məhz bu idi mənim ürəyimdə olan fikirlərim və ürəyimdə olanları mən hələ ki, deməyəcəyəm. Amma babamın məzarını ziyarət etməklə, eyni zamanda, ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir” sözləri dövlət başçımızın nəsil şəcərəsinə sadiqliyidir.

”Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm” söyləyən Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılması naminə göstərdiyi qətiyyəti ilə Azərbaycan xalqının illərdən bəri arzusunda olduğu istəyi reallaşdırır.

Azərbaycanla İran İslam Respublikası arasında qonşu ölkənin ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması ilə geostrateji müstəvidə yeni reallıqlar yaranır. Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiyanın inşası, iki dövlət arasındakı Araz çayı üzərində ikisi avtomobil ( piyada keçidi), ikisi dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədinə 5 kilometr məsafədə inşa olunacaq.

Daha çox Ermənistan üçün faydalı olan Zəngəzur dəhlizinin açılmasına müxtəlif bəhanələrlə əngəl olan işğalçı ölkənin revanş çağırışları özlərinə qənim oldu. Kommunikasiyanın açılması ilə bağlı İranla Azərbaycan arasında imzalanan Anlaşma Memorandumu Ermənistanın bütün bəhanələrinin üzərindən qırmızı xətt çəkdi. Nəqliyyat və enerji layihələrinin texniki əsaslandırılması işlərinə başlanılıb. Həmişə məğlub siyasətinin sonrakı peşmançılığını yaşayan Ermənistan bu dəfə də eyni aqibəti yaşadı. Zamanın reallıqlarını ehtiva edən qatarın arxasınca baxmalı oldu. Hadisələr göstərir ki, gedəcəyi istiqaməti müstəqil müəyyənləşdirmək imkanı olmayan Ermənistan perronda hələ çox gözləyəcək.

Azərbaycanla İran arasında imzalanan Anlaşma Memorandumunda qeyd olunduğu kimi, Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirəcək avtomobil korpüsünün, eləcə də rabitə və enerji xətlərinin layihə sənədlərinin hazırlanması, tikintisi və tikintiyə nəzarət işləri üzrə bütün xərclər Azərbaycan tərəfindən ödəniləcək. İranı Naxçıvan MR-in Ordubad rayonu ilə birləşdirəcək avtomobil körpüsünün layihə sənədlərinin hazırlanması, aparılacaq inşaat işlərinə nəzarət, tikintiyə çəkiləcək xərclər İran tərəfindən maliyyələşdiriləcək.

Avtomobil yolu ilə birlikdə inşa olunacaq dəmir yolunun maliyyələşdirilməsinə dair təkliflər 6 ay müddətində dəqiqləşdiriləcək. Muxtar respublikanı Ermənistanın yaratdığı blokadadan çıxaracaq, Azərbaycanın digər rayonları ilə Naxçıvanı birləşdirəcək Zəngəzur dəhlizi regiondakı nəqliyyat -kommunikasiya şəbəkəsinə yenilik cətirməklə dünyanın nəqliyyat xəritəsini dəyişəcək, dövlətlərarası daşımaların xərcini, ünvanlara çatdırılma müddətini xeyli azaldacaq. Ölkəmizin təşəbbüsü ilə reallaşacaq bu dəhlizin açılması Azərbaycan diplomatiyasının uğuru olmaqla, Ermənistan üzərindəki hərbi Zəfərimizin davamı, iqtisadi Qələbəmiz, dünyada möhkəmlənən nüfuzumuzun təsdiqi olacaq.

İşğalçı ölkənin politoqları İranla Azərbaycan arasında Zəngəzur dəhlizi ilə bağlı imzalanan Anlaşma Memorandumunu ölkələrinin biabırçı məğlubiyyəti adlandırmaqla qeyd edirlər ki, bu cür ”mərkəzdən kənarda qalmaq” siyasəti intriqaların aləti olan Ermənistanın baş naziri Nikol Paşinyanın növbəti məğlubiyyətidir. Halbuki region dövlətlərinin milli maraqlarını əks etdirən Zəngəzur dəhlizi iqtisadi bataqlıqda çabalayan Ermənistan üçün nəfəslik idi. Paşinyanın Ermənistanı səfalətə , böhrana apardığını açıq-aşkar bildirən ermənilər hökumətlərini yaranan bu şansdan istifadə etmədiyi üçün günahlandırırlar. ”Qazanan yenə Azərbaycan oldu” çağırışlarının artdığı Ermənistanda insanlar elə ümid edirdilər ki, Azərbaycanın təşəbbüsü ilə Zəngəzur dəhlizinin açılması ilə işğalçı ölkədə yaranan iqtisadi böhranı aradan qaldırmaq mümkün olacaq. Lakin ağalarının təkidi ilə bu şansı əldən buraxan Ermənistan hələ uzun müddət Azərbaycana yalvarmalı olacaq. İnvestisiyaların cəlbi, yeni iş yerlərinin yaradılması, sənaye müəssisələrinin açılması baxımından bu dəhlizin açılması Ermənistana daha vacib idi. Zəngəzur dəhlizinin açılması ilə bağlı edilən təklifləri siyasi qısqanclığı baxımından düzgün dəyərləndirməyən, bu amildən Azərbaycana qarşı təsir vasitəsi kimi istifadəyə çalışan Ermənistan əvvəlki illərdə olduğu kimi, növbəti dəfə qlobal və regional əhəmiyyətə malik layihələrdən özünü təcrid etdi. Son zamanlarda İranla Azərbaycan arasında möhkəmlənən dostluğa nəzər salmaqla demək olar ki, hər iki ölkə regional sabitliyin yaradılmasında maraqlıdır. Azərbaycanın Ermənistan üzərində Qələbəsini şərtləndirən 44 gün davam edən İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan -İran və Azərbaycan -Ermənistan sərhədində ölkəmizin sərhəd mühafizə infrastrukturunun bərpası, ötən ilin noyabr ayında Aşqabadda Prezident İlham Əliyevin iranlı həmkarı Seyid İbrahim Rəisi ilə görüşü iki qonşu dövlət arasındakı münasibətlərin zamanın tələbinə uyğun inkişafından xəbər verir. İranla Azərbaycan arasında Zəngəzur dəhlizinin bərpası ilə bağlı Anlaşma Memorandumunun imzalanması siyasi uğur, iqtisadi-loqistik tərəqqi deməkdir. Bu Memorandumun imzalanması siyasətdə, diplomatiyada, hərbi və informasiya cəbhəsində qazandığı uğurları ilə Ermənistana qulaqburması verən Azərbaycanın qarşılıqlı əməkdaşlıq çağırışlarının hədəfə çatmasıdır.

***Xuraman İsmayılqızı***

# Yağın saxta, yoxsa təmiz olmasını necə müəyyən etmək olar

ARAŞDIRMA



**Kərə yağı tərkibindəki süd yağının yüksək olması səbəbindən zəngin enerji mənbəyidir.**

Beyin sağlamlığı və sinir hüceyrələrinin inkişafı üçün son dərəcə vacib olan və insan orqanizmi tərəfindən istehsal oluna bilməyən "əsas yağ turşuları" kərə yağından başqa heç bir yağda yoxdur.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xüsusilə ilk 2 yaşındakı uşaqları yağda həll olunan A, D, E və K vitaminlərinin, xüsusilə də kərə yağının mənimsənilməsini asanlaşdıran əsas yağ turşuları ilə zəngin qidalarla qidalandırmağın vacib olduğunu bildirir.

## Kərə yağı və marqarin arasındakı fərq nədir?



Kərə yağı südün yağının çırpılması və qatılaşdırılması nəticəsində alınır. Tamamilə təbii heyvan mənşəli məhsuldur. Tərkibində ən azı 82 faiz südün yağı var. (Duzlu kərə yağında bu nisbət yüzdə 80-dir) Qalanı yalnız süddən ibarətdir. Marqarin isə bitki mənşəlidir. Tərkibində bitki yağı, duz, su və emulqatorlar kimi çoxlu inqrediyentlər var.

## Kərə yağında trans yağ varmı?

Kərə yağı heç bir kimyəvi prosesdən



keçmir. Təbiətində trans yağ yoxdur.

## Əsl kərə yağı necə aşkar etmək olar?

Kərə yağının həqiqi olub olmadığını öyrənmək üçün sadə taktikalar:

1- İsti su testi: Bir parça kərə yağı götürüb bir stəkan qaynar suya atın. Kərə yağı bir tikə büzülərək əriyirsə, həqiqidir, parçalanıb suda əriyirsə, saxtadır.

2- Kəsmə testi: Soyuducudan çıxardığınız yağa bıçağı toxundurun. Bıçaq zərbəsi alan yerlər kiçik parçalara parçalanırsa, bu, əsl kərə yağıdır. Bütün yağ çatlayırsa, onun saxta olma ehtimalı olduqca yüksəkdir.

3- Ərimə testi: Kərə yağını otaq istiliyinə buraxın və gözləyin. Yavaş-yavaş yumşaqlaşırsa, yaxşıdır. Ancaq əriyəndə su buraxırsa, saxta olduğundan şübhələnə bilərsiniz.

4- Rəng testi: Kərə yağı əridin. Plakanın üzərinə əriyən və axan hissələrin rənginə diqqət yetirin. Ərinmiş hissələr yağdan daha tünddürsə, tərkibində qida boyası var. Tavada əritdiyiniz kərə yağı göz-gözə və köpüklü olmalıdır. Bu şərtlərə uyğun gəlmirsə, saxta ola bilər. Kərə yağının köpüklənməsinin səbəbi, tərkibindəki suyun sıxlıq fərqinə görə çıxmasıdır.

## Kərə yağı saxlamağın ən yaxşı yolu nədir?

Kərə yağını öz qablaşdırmasında saxlamaq məsləhətdir. Soyuducunun ən soyuq yerində üzərindəki yararlılıq müddəti bitənə qədər saxlanmalıdır. Soyuducunun qapısında saxlamaq məsləhət görülmür.

Kərə yağı ətrafdakı yeməklərin qoxularını üzərinə çəkmə qabiliyyətinə malikdir. Ona görə də balıq, ət, pendir və meyvəli qidaların yanında qoyulmamalıdır. Əks halda, kərə yağından daha çox başqa yeməklərin dadını alacaqsınız.

## Kərə yağının saxlama müddəti dondurulduqda artır?

Kərə yağı dərin dondurucuda (-18 °C) xarab olmadan təxminən 6-8 ay qalmaq qabiliyyətinə malikdir. Buna görə də, onu dərhal istifadə etməyəcəksinizsə, saxlamaq üçün ən yaxşı yer dondurucudur.

## Qablaşdırılmış kərə yağı kiflənirmi?

Qablaşdırılmış kərə yağı da kifləşə bilər. Paket açıldıqdan sonra ətrafdakı mikroorqanizm sıxlığından, ətraf mühitin temperaturundan və bu mühitdə qalma müddətindən asılı olaraq səthdən başlayaraq kif görünə bilər.

Azərbaycanda kərə yağı adı altında spred yağların satıldığı aşkarlanıb. Bu halların qarşısı necə alına bilər? Əsl kərə yağı necə olmalıdır? Onu saxtadan necə ayırd edə bilərik? SİA bu mövzuda araşdırma apararaq mütəxəssislərin fikirlərini öyrənib.

**Azad İstehlakçılar Birliyi sədri Eyyub Hüseynov:** "Nəhayət ki, Azad İstehlakçılar Birliyi (AİB) bir ay bundan öncə həqiqi kərə yağının necə hazırlandığını tam şəkildə öyrənib. Üzərində spred yazılmayan və nehrə yağı adı altında satılan yağların, həmçinin yağlı kəsmiklər və qatıqların böyük bir hissəsi süd qalığına marqarinlərin qarışdıraraq, 72 dərəcə temperatura qədər qaynadaraq əldə olunur. Nə qədər qaynadılsa belə yağla 96%-i su olan məhlul qarışmır. Alınan qarışığı isti şəkildə homalizator adlanan cihaza daxil edərək bircinsli maye əldə edirlər. Yəni, yağ molekulları ilə üzsüz süd molekulları bir-birinə diffuz edərək yeni süd əmələ gətirir. Həmin südün yağlılığı süd turşularından deyil, marqarindən yaranıb. Bu süddən isə yalnız ucuz yağ və ya ucuz şor əmələ gələ bilər.



Həmçinin, istehsalçılar yəqin ki bu prosesi bir neçə dəfə təkrar edirlər. İnsanlar isə bu məhsulları gerçəyindən fərqləndirə bilmirlər. Təəssüflər olsun ki, Qida Təhlükəsizliyi Agentliyi illərdir bu məsələyə aydınlıq gətirmir.

Bunu da nəzərə almalıyıq ki, AQTA qidanın keyfiyyətinə yox, təhlükəsizliyinə nəzarət edir. Şübhəsiz ki, belə məhsullar əhalinin sağlamlığına mənfi təsir göstərir. Ona görə də bu kimi hallara aydınlıq gətirilməlidir".



**Sağlam Qidalanma mütəxəssisi Məhsəti Hüseynova:** "Hal-hazırda kərə yağı da satılan saxta məhsullar sırasındadır. Xüsusilə tərkibində rəngləndirici qatılmış trans yağları, palma yağı, marqarini kərə yağı altında satırlar. İstehlakçılar ilk növbədə buna diqqət etməlidir. Bu məhsulların ucuz qiymətə satılması belə onların kərə yağı olmadığını təsdiq edir.

Eyni zamanda, kənd məhsulları adı altında saxta nehrə yağı da satılır. Bu cür qatqılı yağlar ürək-damar xəstəliklərinə, xərçəngin əmələ gəlməsinə səbəb olur.

Bəzi vaxtlar isə istehsalçılar insanları aldatmaq üçün məhsullara rus sözlərinə bənzər ad qoyurlar. Lakin məhsulun arxa hissəsində kiçik hərflərlə yerli istehsal müəssisəsinin adını görmək olar. Bununla da həmin məhsulların Rusiyadan, Ukraynadan, Yeni Zenlandiyadan və digər ölkələrdən gəlmədiyi başa düşülür.

Bugünki gündə market və bazarlarda satılan yağların 85%-i xarici yağ altında Azərbaycanda qablaşdırılır.

Ümumiyyətlə, həqiqi kərə yağının 1kq-nı istehsal etmək üçün mövsümə uyğun olaraq təxminən 20-25 litrə qədər süd lazım olur. Xüsusilə isti aylarda heyvanlar daha yaxşı qidalanaraq daha çox süd verir. Südün yağlılıq dərəcəsi çox olduğu üçün daha çox yağ əldə etmək olur. Lakin soyuq havalarda isə miqdar nisbətən aşağı düşür. Ona görə xalis kərə yağının minimum qiyməti 9 manatdan yuxarı olmalıdır. Həmçinin, laborator analizlərdən başqa təbii kərə yağını saxtasından fərqləndirmək ev şəraitində də mümkündür. Kərə yağından bir miqdarını isti suya qatdıqdan sonra onun kiçik hissələrə ayrılaraq əridiyini müşahidə edirikse saxta olduğunu anlayırıq. Başqa bir nüans isə təbii kərə yağının ev şəraitində düzgün istifadə olunmasıdır. Qızartma yeməklərdə kərə yağını çox qızdırdıqda onu artıq biz özümüz trans yağa çevirmiş oluruq. Bu baxımdanda yağın istifadəsinə diqqət etmək lazımdır".

**Sağlam qida tədqiqatçısı Asim Vəliyev:** "Müasir dövrdə qida sənayesi inkişaf etdikcə, qida hiylələri də paralel olaraq artmaqda davam edir. Bu da özünü daha çox qida rasionumuzun əsası və vazkeçilməzi



olan yağlar üzərindən olan hiylələrdir. Etiket üzərindəki iri hərflərlə kərə yağı yazaraq istehlakçılar aldadılır.

İstehlakçılar da əksəriyyətlə etiketdə göstərilən məlumatları kiçik hərflərlə yazıldığı üçün oxumurlar. Ancaq istehsal və son istifadə tarixlərinə diqqət edirlər. Bazarda kərə yağı adı ilə ucuz satılan yağlar belə şübhəyə əsas verə bilər. Üstəlik ölkəmizə yağ adı ilə gətirilən yağların belə mənşəyi sual altındadır.

Əksəriyyəti mənşəyi bəlli olmayan bitki mənşəli yağlardır. Bəzən tanınmış markalarda cüzi dizayn və hərf dəyişikliyi edərək aldatmağa çalışırlar. Bir çox hallarda nəzarət edən aidiyyatı qurum da fiziki olaraq bu işbazların qarşısını almaqda çətinlik çəkir.

Qiyməti ucuz kərə yağı ilə satılan yağların etiket məlumatları mütləq oxunmalıdır. Bəzi yağların üzərindən 82.5 faiz yağlılıq göstərilir. Bu da aldadıcı ola bilər. Şübhə yaranarsa laboratoriyada yoxlanılmalıdır.

Əsl kərə yağı necə olmalıdır? Onu saxtadan necə ayırd edə bilərik?

-Kərə yağını isti suya atdıqda olduğu formadan kiçilərək əriyirsə, bu yağ kərə yağıdır.

-Kərə yağını dondurucudan çıxarıb otaq temperaturunda açıq şəkildə saxlasaq, əgər əriməyib yumuşalarsa, demək təmiz kərə yağıdır.

-Kərə yağı tavada əriyərkən öz rəngindən daha tünd rəng əmələ gəlirsə, təəssüf ki, yağın rəngi qatqı maddələri ilə rənglədirilmişdir.

-Kərə yağı tavada əriyərkən qoxusu iştah açırsa, köpük əmələ gəlirsə, əsl kərə yağıdır.

Qeyd edim ki, təmiz və əsl kərə yağının qiyməti ucuz ola bilməz. Əgər aldığınız yağa bıçaq batırdığınız zaman kiçik hissələrə parçalanırsa, bu əsl kərə yağıdır. Ancaq bıçaq batırdıqda yağ bütöv halda parçalanırsa, deməli saxtadır".

***Ayşən Vəli***

# Azərbaycanın enerji siyasəti və qlobal enerji təhlükəsizliyindəki rolu

## *İlham Əliyev: "Ən qısa mümkün vaxt kəsiyində belə nəhəng enerji obyektlərinin inşa edilməsi bizim güclü imkanlarımızdan xəbər verir"*

Bu gün Azərbaycanın enerji ölkəsi kimi əhəmiyyəti getdikcə artır. Xüsusilə son illərdə Avrasiya məkanında baş verən bir sıra geosiyasi proseslər, enerji amilinin siyasi hadisələrə təsiri Avropa dövlətlərini yeni enerji mənbələrini təmin etməyə sövq etdi. Bu baxımdan regionun əsas neft ölkələrindən biri kimi Azərbaycana diqqətin artması təbiidir. Avropa gələcəkdə enerji təhlükəsizliyinin təmin edilməsində və alternativ mənbələrə çıxışda ölkəmizin əhəmiyyətini qiymətləndirməyə bilməzdi. Məhz Avropa dövlətlərinin alternativ enerji təminatçısı kimi üzünü ölkəmizə çevirməsi anlaşılandır. Çünki Azərbaycan həm də sabit və etibarlı imici ilə diqqət çəkir. Buna görə də ekspertlərin "Azərbaycan enerji təhlükəsizliyi məsələsində Avropanın ən yaxşı tərəfdaşıdır" qənaəti hər kəs tərəfindən şəksiz qəbul edilir və Qərbin enerji tələbatının ödənilməsinə önəmli töhfə verir. Bir sözlə, təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılan enerji siyasəti "Əsrin müqaviləsi" ilə dünyanın ilk neft hasilatçılarından olan Azərbaycanı beynəlxalq enerji bazarlarında birbaşa iştirakçıya çevirdi. Beləliklə, 28 il əvvəl dünyanın müxtəlif ölkələrini təmsil edən iri şirkətlərin nümayəndələri Bakıda bir araya gələndə çox az adam düşünürdü ki, qısa müddətdən sonra Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycan aparıcı ölkələrdən birinə çevriləcək.




### "BU STANSİYASININ AÇILMASI ƏLBƏTTƏ, GENERASİYA GÜCLƏRİMİZİ BÖYÜK DƏRƏCƏDƏ ARTIRACAQ"

Qeyd edək ki, cari ilin fevral ayının 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Qobu" Enerji Qovşağının - yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq "Qobu" yarımstansiyasının və 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasının açılışından sonra Azərbaycan Dövlət İnformasiya Agentliyinə müsahibəsində də bildirdi ki, ən qısa mümkün vaxt kəsiyində belə nəhəng enerji obyektlərinin inşa edilməsi bizim güclü imkanlarımızdan xəbər verir.Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının martın 15-də Gülüstan sarayında təməlqoyma mərasiminin keçirilməsi Azərbaycanın enerji ölkəsi kimi əhəmiyyətinin getdikcə artdığını göstərir.

### "QARADAĞ GÜNƏŞ ELEKTRİK STANSİYASININ TƏMƏLİNİN QOYULMASI ÇOX ÖNƏMLİ HADİSƏDİR"

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimindəki çıxışında bildirib ki, ölkəmizin energetika sahəsində çox əlamətdar bir gün olduğunu və bu stansiyanın həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək: "Bu gün Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Doğrudan da çox önəmli bir hadisədir, 230 meqavat gücündə olan bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək".

### "AZƏRBAYCAN ELEKTRİK ENERJİSİNİN BÖYÜK İSTEHSALÇISI VƏ İXRACATÇISI OLACAQDIR"

"Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır",-deyən dövlət başçısı onu da bildirib ki, artıq bu işin təzahürləri görünür: "Onu da nəzərə almalıyıq ki, qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik - təbii qaz, su, günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik".

### "BİZİM SİYASƏTİMİZ, İLK NÖVBƏDƏ, AZAD EDİLMİŞ TORPAQLARI BƏRPA ETMƏK VƏ ÖLKƏMİZİN DAYANIQLI İNKİŞAFINI TƏMİN ETMƏKDİR"

Prezident İlham Əliyev təməlqoyma mərasimində çıxışı zamanı vurğulayıb ki, bu gün əsas məqsəd ilk növbədə, azad edilmiş torpaqları bərpa etməkdir: "Bizim siyasətimiz, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək və ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir".

Dövlətimizin başçısı qeyd edib ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir: "Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, bu layihəni də biz görməzdik. Yəni, bütün bu amillərin vəhdəti çox gözəl bir imkan yaradır. Hesab edirəm ki, biz bu imkandan böyük səmərə ilə istifadə edirik və edəcəyik".

### "BÖYÜK POTENSİAL İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏDİR"

Dövlət başçısı vurğulayıb ki, bu gün böyük potensial işğaldan azad edilmiş ərazilərdədir: "Artıq dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq ilkin addımlar da atılır, bp şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Ümid edirəm ki, bu danışıqlar da uğurla nəticələnəcək. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Bildirməliyəm ki, işğal dövründə 30 il ərzində ermənilər və Ermənistan dövləti o vaxt işğal altında olan torpaqlarda bütün infrastrukturu, bütün binaları, tarixi, dini abidələrimizi dağıtmışlar, bunu təsdiqləyən bir çox sənədlər, video-foto məlumatlar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyasını məhv etmişlər və biz artıq azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayaraq, o cümlədən elektroenergetika sahəsinə böyük diqqət göstərmişik".

### "AZAD EDİLMİŞ TORPAQLARDA CƏMİ BİR İL ƏRZİNDƏ 7 YARIMSTANSİYA YARADILIBDIR"

Prezident İlham Əliyev çıxışında söyləyib ki, keçən il 4 su elektrik stansiyasını bərpa edilib ki, onların da ümumi generasiya gücü 20 meqavatdır: "Bu il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Düzdür, digər stansiyalarla müqayisədə həcm o qədər də böyük deyil. Lakin bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su elektrik stansiyalarıdır. Güləş və külək elektrik stansiyalarının yaradılması üçün təbii ki, daha böyük potensial var. Yenə də demək istəyirəm ki, bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır".

"Mən çox şadam ki, bu böyük layihənin icraçısı dünyada tanınmış və bu sahədə böyük təcrübəsi olan "Masdar" şirkətidir, - deyən dövlət başçısı qeyd edərək bildirib ki, "Masdar" şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir: "Əlbəttə ki, bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir".

### "AZƏRBAYCAN DÜNYA MİQYASINDA O ÖLKƏLƏRDƏNDİR Kİ, XARİCİ DÖVLƏT BORCU ÇOX AŞAĞI SƏVİYYƏDƏDİR, CƏMİ 7,4 MİLYARD DOLLARDIR"

"Müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıb və bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır",- deyən dövlət başçısı Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, xarici dövlət borcu çox aşağı səviyyədə olduğunu bildirib.

"Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır", - deyə dövlətimizin başçısı vurğulayıb.Prezident İlham Əliyev əlavə edib ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır: "Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar".

### "AZƏRBAYCAN DÜNYA MİQYASINDA BÜTÜN ENERJİ KOMPONENTLƏRİNİN İNKİŞAFINA GÖRƏ QABAQCIL ÖLKƏLƏRDƏNDİR"

Dövlət başçısı çıxışı zamanı müstəqilliyimizin ilk illərində enerji sahəsində çətinliklərdən danışaraq bildirdi ki, bu mövcud olan stansiyalar yararsız vəziyyətdə olmağından irəli gəlirdi: "Mövcud olan stansiyalar yararsız vəziyyətdə idi və yeni stansiyaların tikilməsinə pulumuz yox idi, Azərbaycan elektrik enerjisini Rusiyadan idxal edirdi. Təbii qazla bağlı qıtlıq var idi, bölgələrdə, ümumiyyətlə, qaz yox idi və neft hasilatı kəskin düşmüşdü. Bu gün isə Azərbaycan dünya miqyasında bütün enerji komponentlərinin inkişafına görə qabaqcıl ölkələrdəndir". Göründüyü kimi, bütövlükdə, son illərdə respublikamızda elektrik enerjisi infrastrukturuna böyük həcmdə sərmayələr yatırılmaqdadır. Bu isə, Azərbaycanda enerji təhlükəsizliyi ilə bağlı heç bir problemin olmadığını, ölkəmizin həm bölgədə, həm də qitədə çox etibarlı enerji təchizatçısına çevrildiyini isğat edir. Bir sözlə bütün bunlar onu göstərir ki, Azərbaycan həm də enerji keçidi ilə bağlı qlobal çağırışların uğurla reallaşdığı ölkələrdəndir və bundan sonra da uğurları daha çox olacaq.

Prezident İlham Əliyevin dediyi kimi: "Əlbəttə ki, növbəti planlarımız da var. Həm daxildə, həm xaricdə artan tələbatı ödəmək üçün bizim böyük planlarımız var, onlar reallaşır, o cümlədən bərpaolunan enerji növləri ilə bağlı planlarımız. Əminəm ki, bu gün burada qeyd etdiyimiz açılış və buna bənzər açılışlar bundan sonra da çox olacaq".

***RƏFİQƏ KAMALQIZI***

# Şəhər sakinləri bayram tətilini NECƏ DƏYƏRLƏNDİRƏCƏK?

**2022-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramıdır. Martın 20-i bazar gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yeri dəyişdiriləcək 25 mart qeyri-iş günü hesab olunub. Beləliklə, 19, 26 və 27 mart tarixləri də şənbə gününə təsadüf etdiyi üçün Novruz bayramı ilə əlaqədar 9 gün ardıcıl (19, 20, 21, 22, 23, 24, 25, 26 və 27 mart) iş olmayacaq. Bəs gəlin görək şəhər sakinləri bayram tətilini necə dəyərləndirəcək. SİA bu mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu keçirib.**

**Şəhər sakini Məlahət Ağayeva:** ”Bayram tətilində nəvələrimlə birgə ra-



yona getməyi planlaşdırırıq. Düşünürəm ki, şəhərdə bayram biraz sönük şəkildə qeyd olunur. Kənd yerində isə bayram daha maraqlı keçir. Sakitlik üçün biraz şəhərdən uzaqlaşmaq lazımdır”.

**Şəhər sakini Araz Əsədli:** ”Tətili



evdə ailəmlə keçirərək istirahət etməyə çalışacam. Çünki bütün ay boyunca işləyirik. Bu, bizim üçün bir fürsətdir. Stressdən uzaq olmağın, dincəlməyin xalqımıza faydası olacaq”.

**Şəhər sakini Səadət Manafova:** ”Öncəliklə xalqımızı Novruz bayramı



münasibətilə təbrik edirəm. Novruz tətilində nəvələrim bizə gələcək. Onlarla birgə vaxt keçirməyi sevirəm. Bu mənim üçün ən dəyərli tətil, ən səmərəli vaxt olacaq”.

**Şəhər sakini Əli Dadaşzadə:** ”Mən xidmət sektorunda çalışdığım üçün qeyri-iş günlərini də işdə dəyər-



ləndirəcəm. Bayramda da xalqa xidmət edəcəm. Azərbaycan xalqının da bayramını təbrik edirəm. Hər kəsə kiçik büdcəylə belə xoşbəxt olmağı arzu edirəm. İşgüzar xalqımız tətil müddətindən istifadə edərək bacardıqları qədər dincəlsinlər”.

**Şəhər sakini İlahə Kərimli:** ”Bayramda ailəmlə birlikdə rayona valideynlərimin yanına gedəcəyik. Bizim iş, uşaqların da dərs problemlərindən,



stressdən uzaqlaşmağı lazımdır. Böyüklərimizlə bir yerdə Novruz adət-ənənələrini keçirmək, əvvəlki bayramları unutmamaq gərəkdir”.

**Şəhər sakini Əziz Süleymanov:** ”Tətildə sadəcə evdə olmağı planlaşdırıram. Çünki işdən, problemlərdən istirahət üçün vaxt tapmaq olmur. Amma özümüzü düşündüyümüz qə-



dər, uşaqları da düşünməliyik. Bu onların da bayramıdır. Ona görə də tətildə övladlarımı zooparka və ya əyləncə mərkəzinə aparmağı düşünürəm”.

***Ləman Əlizadə***

# Dünyada ikili standartlar, riyakarlıq və böyük qloballaşma mövcuddur




***“Antalya Diplomatik Forumu artıq dünyada beynəlxalq münasibətlər sistemində önəmli bir platformaya çevrilib. Çünki beynəlxalq münasibətlər sisteminə nəzər saldıqda görürük ki, dünyada ikili standartlar, riyakarlıq və böyük qloballaşma mövcuddur”. Bu sözləri SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib.***

Onun sözlərinə görə, Antalya Diplomatik Forumu tamamilə beynəlxalq münasibətlər sisteminə yeni baxışın və yanaşmanın gətirilməsini həyata keçirir: ”Burada bir çox məsələlər müzakirə olunur. Buna dünyada baş verən qlobal məsələlər də aiddir. Bu forumda sülhə, əmin-amanlığa, beynəlxalq münasibətlərin qarşılıqlı əməkdaşlığına çevrilməsini müşahidə edirik.

Deputat sözlərinə belə davam edib: ”Bu forumun qardaş Türkiyədə keçirilməsi region üçün də çox önəmlidir. Bu regionda baş verən hadisələrin beynəlxalq münasibətlər sisteminə isteqrasiyası, dünyaya həqiqətlərin çatdırılması baxımından çox önəmli bir platformadır”.

***Ayşən Vəli***




# Əməkdaşlıq memorandumu imzalanıb

Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. SİA-nın verdiyi məlumata görə, sənədin imzalanmasında məqsəd ADA Universiteti və MEDİA Agentliyi arasında müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulması, elmi-praktiki tədbirlərin, tələbələrin təcrübi biliklərinin artırılması, habelə media sahəsində mütəxəssislərin hazırlanması və onların əlavə təhsilinin təşkil edilməsidir.

Sənədi Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə imzalayıblar. Memoranduma əsasən, tədris ili ərzində istehsalat təcrübəsinin və yay təcrübə proqramlarının keçirilməsi, bununla yanaşı təhsil sahəsində müasir texnologiyaların və elmi inkişafın istifadəsində qarşılıqlı əlaqələndirmənin təmin edilməsi nəzərdə tutulub.

Memorandum çərçivəsində tərəflərin nümayəndələrinin iştirakı ilə birgə layihə və tədqiqatlar həyata keçiriləcək, konfranslar, təlimlər və seminarlar təşkil ediləcək.

Əməkdaşlıq memorandumu tələbələri MEDİA Agentliyinin fəaliyyəti və mövcud olan vəzifələr haqqında məlumatlandırmaq məqsədilə Universitetdə ”Karyera günləri”nin keçirilməsini də nəzərdə tutur. Həmçinin tələbələrin kurs və buraxılış işləri, magistrantların dissertasiya mövzuları Agentliyin həyata keçirdiyi layihələrin məzmunu ilə əlaqələndiriləcək.

# Şəkər və taxılın qiyməti qalxacaq?

“Yaxın günlərdə ölkəmizdə nə taxılın, nə də şəkərin qiymətində artım gözlənilir”. Bunu ”Xəzər Xəbər”ə müsahibəsində iqtisadçı-ekspert Altay İsmayılov deyib. Bir neçə gün əvvəl Rusiya taxıl və şəkərin ixracına qadağa qoydu. Sosial şəbəkələrdə və bir sıra kütləvi informasiya vasitələrində bu qadağanın Azərbaycan bazarına da təsir edəcəyi ilə bağlı müzakirələr aparılır. İqtisadçı-ekspert Altay İsmayılov bildirir ki, Rusiya rəsmilərinin açıqlamalarına görə, bu qadağa Avrasiya İttifaqı ölkələrinə tətbiq ediləcək. Ekspertin sözlərinə görə, buna rəğmən, indidən dünya taxıl və şəkər bazarında mənfi təsirləri görmək mümkündür.



Bu təsirlər zaman keçdikcə dünya bazarında taxıl və şəkərdə qıtlığa səbəb ola bilər.

Altay İsmayılov deyir ki, Azərbaycan Rusiyadan əhəmiyyətli miqdarda taxıl idxal edir, şəkər idxalında isə fərqli mənzərə yaşanır.

Ekspertin fikrincə, bu qadağalar hələlik Avrasiya İttifaqı ölkələrinə şamil edildiyindən Azərbaycanda yaxın günlərdə taxılın və şəkərin qiymətində artım gözlənilmir. Ancaq gün keçdikcə vəziyyət dəyişilə bilər. A.İsmayılov ölkəmizdə bu məhsulların qiymətində artım olmaması üçün hansı qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı fikirlərini bölüşüb.

Qeyd edək ki, BMT qlobal bazarda qiymət artımlarının davam edəcəyini bəyan edib. Təşkilatın hesablamalarına görə, dünya bazarında ərzaq məhsullarının qiymətləri növündən asılı olaraq ən azı 8-22 faiz intervalında yüksələcək.



# Ermənistanın
## qorxunc haldan da pis vəziyyəti

**Rusiyaya qarşı sanksiyalar Ermənistan cəmiyyətinin yuxusunu ərşə çəkib. Xüsusilə də gah Rusiyanın, gah Qərbin tərəfinə keçən ermənilər çaş-baş vəziyyətdədirlər. İndi erməniləri daha çox narahat edən, ələlxüsus Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsi, nüfuzunun artması, bütün dünyada söz sahibinə çevrilməsidir və onlar qorxurar ki, Azərbaycanın yaratdığı reallıq qarşısında, siyasi üstünlüklər önündə aciz olaraq davam gətirə bilməyəcəklər.**

Rusiyanın Ukraynaya qarşı müharibəsinin Ermənistana heç bir şəkildə təsir etməyəcəyinə hələ də inanan ermənilərin hamısına xatırlatmaq yerinə düşərdi ki, Ermənistanın ÜDM-də transfertlərinin payı 15%-dən 7-8%-ə qədər azalıb. Bu əlbəttə ki, əbəs yerə deyil və ağlı başında olan hərhansı bir erməni bunun səbəbini yaxşı başa düşməlidir. Xüsusilə qeyd etmək yerinə düşərdi ki, Rusiyadan köçürmələrin payı 80%-dən 40%-ə qədər azalıb və bu da transfertlərin gözlənilən azalmasının iqtisadi effektini 20% səviyyəsində azaldır.

Diqqətə çatdıraq ki, Ermənistan Mərkəzi Bankının Pul Siyasəti Departamentinin rəhbəri Hayk Avetisyan jurnalistlərlə görüşündə belə qorxulu mənzərəni yerindəcə təsvir edib və vəziyyətin gərgin olduğunu etiraf edib. Bəli, o danışdığını bilir və hələ bildiklərinin çoxunu da demir. Çünki dediklərinin nə ilə nəticələnəcəyini anlayır. Bilir ki, vəziyyət Ermənistan üçün qorxunc haldan da daha dəhşətli, daha pis olacaq. Bu, sadəcə bir proqnoz sayıla bilməz və diqqətə çatdırmağı lazım bilirik ki, bu, hazırlaşılmalı olan bir reallıqdır, hansıki, Ermənistan üçün bu reallıqdan qaçış yoxdur.



Məsələ son dərəcə ciddidir və vəziyyətin Ermənistan üçün son dərəcə daha kritik olacağı gözlənilir. Gözləntilərin nədən ibarət olduğu tam şəkildə aydındır və bunun başqa bir sübutu da bundan ibarətdir ki, əgər Rusiya tərəfindən defolt baş verdiyi təqdirdə, təkcə dövlətin deyil, Rusiya şirkətlərinin də öhdəlikləri təhlükə altında olacaq. Söhbət nəzərəçarpacaq dərəcədə böyük məbləğdən gedir və bu məbləğ 150 milyard dollardır. Nəzərə almaq lazımdır ki, bu, 2001-ci ildəkindən, yəni Argentinadan sonra dünyada ən böyük defolt sayıla bilər. Bu barədə dünyaca məşhur "Bloomberg" də yazır. Ən dəhşətlisi isə odur ki, vəziyyət günlər ərzində deyil, saatlar ərzində getdikcə daha da pisləşir və bu bir reallıqdır.

"Bloomberg"-in yayımladığına görə, hadisələrin inkişafı üçün üç variant var. Əgər Rusiya hələ də dollarla ödəniş etsə, defolt təxirə salınacaq, sonrakı ödənişlər aprelin 4-də rublda olarsa, bu, defoltdur, lakin "yumşaq" defoltdur. Çünki bəzi Rusiya istiqrazları fors-major vəziyyətində belə bir imkanı nəzərdə tuturdu. Əgər heç ödənməzsə, bu, ölkəni kapital bazarlarından kəsən "ağır" defolt ola bilər. Bütün bunları dünyaca məşhur nəşr açıq-aşkar qeyd edir və göründüyü kimi, kritik məqam barədə xəbərdarlıq edilir.

Qeyd olunduğu kimi, Rusiyanın istiqrazlarda xarici borcu 39,9 milyard dollar təşkil edir. Sonrakı ən mühüm borc Qazproma aiddir və bu rəqəm 25 milyard dollardan çoxdur. Növbəti sırada isə Rusiya Dəmir Yolları, Moskva Kredit Bankı, VEB, Norilsk Nikel, Sibur, Sberbank, LUKOYL-un xarici valyuta borclarıdır. Ümumiyyətlə, hətta bu belə, Rusiya iqtisadiyyatı üçün faciənin miqyasını anlamaq üçün kifayət edir. Deməli, bu faciənin Ermənistan üçün də qaçılmaz olduğu danılmazdır. Çünki, arada çox bağlıyıq var. Bu isə ondan xəbər verir ki, hadisələrin gedişi heç də mənfi mənada təsirsiz ötüşməyəcək, əksinə daha acınacaqlı nəticələrə gətirib çıxaracaq.





Ermənistan üçün yaranan, gözlənilən bütün bu acınacaqlı vəziyyətin günahkarı kimdir? Ermənistan iqtisadiyyatının bu cür total asılılığından və zəifliyindən qaçmaq mümkün olubmu? Suallar yenə də var və bitib-tükənən deyil. Əslində hansınasa indi cavab axtarmağın mənası belə qalmır. Çünki artıq elə bir vaxt gəlib çatıb ki, daha heç nə Ermənistandan, ermənilərdən asılı deyil. Bu işğalçı ölkənin bu zamana qədər yürütdüyü yanlış siyasət vəziyyəti bu hala gətirib çıxarıb. İndi Ermənistan bir növ, sanki elə bir uçqun altındadır ki, bunu ermənilər təsəvvür belə edə bilmirlər. Əgər təsəvvür etmiş olsalar başlarının çarələrinə baxarlar, ağıllarına gələni danışmaq, mənasız və əsassız iddialarla çıxış etmək, düşüncəsiz, məntiqsiz hərəkətləri etmək yadlarına belə düşməz.

Ermənistan üçün ən təhlükəlisi isə odur ki, bu dəfə ermənilər Qərbi hansısa yolla aldatmağa, axmaq yerinə qoymağa çalışsalar, onun daha böyük təzyiqi ilə üzləşə bilərlər. Ruslar indi sanksiyalardan yan keçməyin yollarını fəal şəkildə axtarırlar. Bu belə də olmalıdır və gözlənilən idi. Onlar bunu hər yerdə, hər istiqamətdə axtarırlar. Görəsən, ermənilər bundan bir nəticə çıxara bilirlərmi? Başa düşürlərmi ki, Rusiya kimi bir dövlət əgər çıxış yolu axtarışındadırsa, deməli Ermənistan bunu çoxdan etməli idi, amma deyəsən qorxularının səbəbini tam anlaya bilməyiblər.

Tutaq ki, Rusiya hərhansı sanksiya qarşısında öz nefti və qazından Qərbi məhrum etməyi düşünür. Bunun nə dərəcədə effektiv olacağı müzakirə mövzusu deyil, sadəcə Ermənistanın bircə dənə şansı belə yoxdur axı. İşğalçılıq siyasəti yürüdən, işğalçılıqdan başqa heç bir işlə məşğul olmayan dövlətin nəyi var, nə idxal edir ki, buna ümidini də bağlasın? Yaxud, deyək ki, Avropa, Qərb Azərbaycan barədə müsbət fikirlərə düşməkdə haqlıdır, çünki belə bir şəraiti Azərbaycan özü yaradıb. Bölgədə yeni reallıqlar yaradan Azərbaycan sülhün, təhlükəsizliyin təmin olunmasına nail olub. Bununla yanaşı Azərbaycan eyni zamanda qlobal iqtisadi layihələrə imza atıb və Avropa, Qərb bunun nə demək olduğunu yaxşı bilir. Bir sözlə, Azərbaycana qarşı hərhansı aqressiya qəti şəkildə gözlənilən deyil. Bunun heç əsası da yoxdur və Azərbaycan balanslaşdırılmış siyasəti sayəsində haqqında qeyd olunan vəziyyətlə qəti üzləşə belə bilməz. Bəs görəsən Ermənistan barədə bunu demək olarmı? Əlbəttə ki, olmaz. Çünki Ermənistanın bu zamana qədər nə mövqeyi bəlli olub, nə də Qərbin bu işğalçı ölkə barəsində gözləntiləri də qəti şəkildə yoxdur. Əksinə, ermənilərə güvənilmədiyi bəlli məsələdir. Deməli, məhz bu baxımdan real gözləntilərdən çıxış yolu yoxdur və buna ümid edən kəslərin olacağı da şübhə doğurur. Hətta ermənilər ondan da qorxurlar ki, Rusiya Ukraynada həyata keçirdiyi əməliyyat kimi eyni şəkildə cəza əməliyyatını ermənilərin məskunlaşdığı ərazilərdə də keçirmək istəyə bilər. Bunun üçün Qərbin razılığını almaq da lazım olmaz. Ona görə də, görünən mənzərə Ermənistan üçün dəhşətli qorxularla dolu zamanın gəldiyini təsdiqləyir. Bəli, Ermənistan üçün qorxunc haldan da pis vəziyyət gözlənilir.

***İnam Hacıyev***

# "Azərbaycanın enerji diplomatiyasının uğurları ölkəmizin potensialdan xəbər verir"



**"Azərbaycan malik olduğu təbii resurslara görə daim dünyanın diqqətində və marağında olub. Amma reallıq budur ki, 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə yaradılan sabitlik, əlverişli iqtisadi mühit ölkəmizlə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olan dövlətlərin, şirkətlərin sayının artmasında əhəmiyyətli rol oynadı.**

Ümummilli Liderin müəllifi olduğu "Əsrin müqaviləsi" ölkəmizin iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsində stimulverici amil rolunu oynadı. Bu müqavilədən sonra imzalanan onlarla saziş, Anlaşma memorandumları da deyilənlərin təsdiqidir. "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 28 ilə yaxın dövrdə ölkəmizin enerji sektorunda qazandığı uğurların miqyasına diqqət yetirməklə Azərbaycanın regional inkişafa və dünyanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfələrinin aydın mənzərəsini yarada bilərik. Qədim dövrlərdən neft ölkəsi kimi tanınan Azərbaycan bu gün, eyni zamanda, beynəlxalq arenada qaz ixracatçısı kimi nüfuz qazanmaqdadır. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi ilə əməkdaşlığın regional çərçivədə inkişafının təməli qoyuldu. Bu layihələr nəinki iştirakçı ölkələrin, həmçinin dünya dövlətlərinin dayanıqlı iqtisadi inkişafına geniş imkanlar açdı. Təsadüfi deyil ki, artıq bu gün beynəlxalq səviyyədə çoxtərəfli əməkdaşlığın başlanğıcı kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin perspektivlərindən, Azərbaycanın etibarlı tərəfdaş kimi möhkəmlənən mövqeyindən geniş bəhs olunur. 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməlinin qoyulması mərasimində dövlət başçısı İlham Əliyev bu mühüm addımı görülən işlərin zirvəsi kimi dəyərləndirmişdir. Enerji layihələrinin coğrafiyasının genişləndirilməsi, yeni-yeni layihələrin gündəmə gətirilərək onların siyasi və iqtisadi əhəmiyyətinin beynəlxalq müzakirəyə çıxarılması bölgədə, dünya birliyində sabitlik və əmin-amanlığın möhkəmlənməsinə öz müsbət təsirini göstərir. İqtisadi müstəqilliyin siyasi müstəqillik üçün əsas olduğunu nəzərə alsaq, bu gün Azərbaycanın digər sahələrdə olduğu kimi, enerji sektorunda da liderliyinin özünü qabarıq şəkildə büruzə verdiyini inamla söyləyə bilərik. Dövlət başçısı İlham Əliyevin Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsinin mümkünsüzlüyü barədə səsləndirdiyi fikirlər də bugünümüzün reallıqlarına söykənir." Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bu günlərdə təməlqoyma mərasimi keçirilən Qaradağ Günəş Elektrik Stansiyasının perspektivləri ilə bağlı SİA-ya açıqlamasında bildirib.

"Əsrin müqaviləsi" 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanmasına yol açdı, 2018-ci ildə çoxtərəfli əməkdaşlığın başlanğıcı kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas seqmentlərindən olan TANAP və TAP-ın istifadəyə verilməsi kimi mühüm qlobal hadisələr enerji tariximizi daha da zənginləşdirdi" söyləyən Vüqar Rəhimzadə qeyd edib ki, bu gün Azərbaycan neft, təbii qaz, neft məhsulları və elektrik enerjisi ixrac edən ölkədir: "Azərbaycanda elektrik enerjisinin ixracı baxımından böyük potensial var. Hər bir yeni stansiyanın inşa olunması ixrac imkanlarımızı daha da genişləndirir. Atılan hər bir addım, eyni zamanda, şirkətlərin məxsus olduğu ölkələr arasında əlaqələrin inkişafının təqdimatıdır. Qaradağ Günəş Elektrik Stansiyasının inşasını həyata keçirəcək "Masdar" şirkəti Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bu ölkə ilə Azərbaycan arasında iqtisadi, siyasi və digər sahələrdə əməkdaşlıq yüksək səviyyədədir. Dövlət başçısı İlham Əliyev Bakının "Gülüstan" sarayında keçirilən təməlqoyma mərasimində ölkələrimizin bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlığa start verməl期 lərindən məmnunluğunu bildirərək bu əminliyi ifadə etmişdir ki, yaxın gələcəkdə Qaradağda bu stansiyanın açılışını birlikdə qeyd edəcəyik. Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouel Azərbaycanın bərpaolunan enerji planlarını enerji siyasətinin mühüm hissəsinə çevirmək istəyini alqışlayaraq ölkəmizin 2030-cu ilə qədər bu sahədə quraşdırılmış güclərin 30 faizə qədər artırılması kimi mühüm məqsədləri qarşıya qoymasından məmnunluğunu ifadə etmişdir. Təbii ki, bu əməkdaşlıqda əhəmiyyətli rol oynayan amillərdən biri də ölkəmizin investisiya cəlbediciliyini qorumasından irəli gəlir. Azərbaycan investisiya cəlb etməklə yanaşı, eyni zamanda, investisiya yatıran ölkədir. Son 18 ildən artıq dövrdə ölkə iqtisadiyyatına 280 milyard dollara yaxın vəsait yatırılıb. Bu rəqəm, təbii ki, Azərbaycanın bugününə və gələcəyinə inamdan irəli gəlir."

YAP Xətai rayon təşkilatının sədri onu da əlavə edib ki, ötən hər bir il enerji sektorunda qazanılan uğurların zənginliyi ilə diqqət çəkir: "Baxmayaraq ki, cari ilin iki ayını arxada qoymuşuq artıq indidən inamla söyləyə bilərik ki, energetika sahəsində çox önəmli addımlar atılıb. Belə ki, ötən yanvar ayında Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə birlikdə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında "Azərenerji" ASC tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyanın açılışı oldu. Ümumilikdə bərpaolunan enerji növlərinin inkişafı hazırda ölkəmiz üçün prioritet məsələdir. Dünyanın aparıcı enerji şirkətləri Azərbaycanla bu sahədə əməkdaşlıq etməkdə maraqlıdırlar. Böyük potensial işğaldan azad edilmiş ərazilərdədir."

"Rəqabət qabiliyyəti baxımından MDB məkanında birinci olan Azərbaycanın iqtisadi uğurlarını təmin edən, regionda sülhün təminatı üçün səylərini artıran neft-qaz amilinin əhəmiyyəti bütün səviyyələrdə xüsusilə vurğulanır" söyləyən Vüqar Rəhimzadə bildirib ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyası Azərbaycanın davamlı inkişafının əsasına çevrilib: "Bu fikir hər zaman önə çəkilir ki, dünyada neftlə zəngin çox ölkə var. Amma o sərvətlər həmin ölkələrə heç də uğur gətirmir. Lakin Azərbaycanda neft strategiyasının dünya ölkələrinin təcrübəsinə əsasən işlənib hazırlanması uğurlarımızın davamlılığına stimuldur. Neft gəlirlərinin düzgün idarə olunması əhalinin sosial müdafiəsinin təminatında əhəmiyyətli rol oynayır. Hazırda paytaxt və bölgələrdə, artıq azadlığına qovuşmuş torpaqlarımızda mühüm sosial-iqtisadi layihələr həyata keçirilir. Geniş miqyas alan bərpa və quruculuq işləri ölkəmizin öz maliyyə vəsaitləri hesabına aparılır. Dövlət başçısı İlham Əliyev qeyd olunan təməlqoyma mərasimində Azərbaycanın hazırkı dayanıqlı iqtisadi inkişafını sosial-iqtisadi göstəricilər əsasında diqqətə çatdırmışdır. Təkcə bu ilin iki ayının göstəricilərinə diqqət yetirməklə qarşıdakı dövrün aydın mənzərəsini təqdim edə bilərik. Ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artıb. Bu rəqəmlər göstərir ki, ölkəmizdə aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Dövlət başçısı bu məqamı da xüsusi qeyd edir ki, Azərbaycan dünya miqyasında xarici dövlət borcu çox aşağı səviyyədə olan ölkələr sırasındadır."

YAP Xətai rayon təşkilatının sədri günümüzün uğurları sırasında yer alan bu mühüm məqamı da xüsusi qeyd edib ki, Azərbaycan hazırda dünya miqyasında yalnız investisiya yatırılan deyil, eyni zamanda, investisiya yatıran ölkə kimi tanınır və nüfuz qazanır: "Hazırkı dövrdə prioritet məsələ azad edilmiş torpaqlarda bərpa və quruculuq işlərini uğurla başa çatdırmaq və Böyük Qayıdışı reallaşdırmaqdır. Sonrakı mərhələdə bu ərazilərimizin malik olduğu potensialdan səmərəli istifadə etməklə Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın dayanıqlı inkişafı üçün geniş imkanlar yaradılacaq. Qarabağımız böyük investisiyalar məkanına çevriləcək".

# Yaşıl rəngli, incə belli səməni

Təbiətin ilk cücərtisi, yaşıl rəngi səməni   Yaşıl donlu, incə belli səməni. Elə-aləmə baharın gəldiyini müjdələdiyi üçün sevilərək, əzizlənərək belinə qırmızı lent də bağlanan, Novruz süfrələrini bəzəyən, el-el, ev-ev gəzən, nişanlı qızların "görüşünə gedən", təzə gəlinlərin xonçasını rövnəqləndirən, ruzi-bərəkət rəmzi səməni. Bilirsənmi, sən hansı zamandan arzulanırsan?Payızın ortalarından başlayan ayaz-soyuq dağların, çəmənlərin, bağların yaşılına qənim kəsilib onları sarı xəzələ çevirəndən   Qışın qarı-şaxtası hər yanı aylar uzunu bəyazlara bürüyəndən   Zamanın bu kəsiyində insanların gözləri yaşıla həsrət qalandan.

Qışın böyük çilləsini yola salan, kiçik çilləsini başa vuran, Boz aya qədəm qoyan insanın ruhu sanki baharı səsləyir. Yaşıl rəngin min bir çaları ilə təbiətə dirilik, ömrə bəzək gətirən baharı. Gözlər yaşılı axtarır. Bax, bu zaman sən arzulanırsan, səməni. Çünki baharı sən gətirirsən. Novruzaqədərki çərşənbələrin bir-birinin ardınca suya hərarət, torpağa istilik, yelin, odun yurdumuza ılıq nəfəs bəxş etməsini bayram edərkən sən hökmən o bayram şənliklərinin, süfrələrinin bəzəyi olmalısan. Elə buna görə də Novruza 10-15 gün qalmış hər bir evdə xoş sözlərlə, xeyir-dualarla səni cücərdərlər ki, vaxta-vədəyə özünü yetirə biləsən. Sən o qədər sevimlisən ki, ana-nənələrimiz sənə zinət vurmaqdan usanmırlar.



Səməni bolluğun, firavanlığın rəmzidir. Həm də səməni cücərtmək adəti heç də boş-boşuna yaranmayıb. Qədimdə torpaq oyanana yaxın bir az buğda götürüb cücərdərdilər ki, görsünlər, bu toxumluq üçün yaxşıdır, ya pis. Elə o vaxtdan ta bu günə kimi səməni cücərtmək bir adət halını almışdır. Gözümüzü dünyaya açıb özümüzü dərk edəndən ana-nənələrimizin bayramqabağı səməni cücərtməsinin şahidi olub öyrənmişik. Zaman keçdikcə səməni də fərqli şəkildə cücərdilməyə başlanıldı. Məsələn, milli ornamentimiz olan buta formasında. Burada sanki iki rəmz birləşərək Novruz bayramının gözəlliyinə daha bir gözəllik qatır. Bayrağımızdakı səkkizguşəli ulduz formasında səməni daha gözəl alınır. Fərqli formalarda səmənilərin cücərdilməsi həm qadınlarımızın təxəyyülünü, həm də səliqə-sahmanını ortaya çıxarır. Bayram mərasimlərinə, evlərə, süfrələrə daha bir gözəllik qatır.

Əvvəllər tək-tək adam tapılardı ki, səmənini pulla alsın, amma indi əksər qadınlar tənbəllik edib səmənini almağa üstünlük verirlər. Amma, məncə, hər kəs bunu evində cücərtsə, daha maraqlı olar. Həm ruzi-bərəkət baxımından, həm də səməninin boy atmasını izləmək insana xoş təsir bağışlayır. Hələ o vaxtlar nənələrimiz bir araya gələrək səməni halvası da bişirər, ondan hər kəsə pay verərdilər. Deyərdilər ki, səməni müqəddəsdir. Ona təmiz qabdan su vermək, təmiz yerdə saxlamaq, hündür yerə qoymaq lazımdır. Saralandan sonra da natəmiz yerə atmaq günah sayılar. Onu ya axar suya atmalı, ya da həyətdəki toyuq-cücəyə verməlisən.

Səmənilər becərən, onlara su verən xanımlarımız bayatılar da söylərlər. Səmənilər də sanki bu bayatılardan ilham alıb böyüyərlər:

Ay səməni, səməni,
Utandırma, sən məni,
Yaşılın qoy bol olsun,
Heyran etsin çəməni.
Əzizim yaşıl çəmən,
Yaşıl bağ, yaşıl çəmən,
Qoy səmənidən alsın,
Bu rəngi hər bağ, çəmən.
Yaşıl donlu, incə belli səməni,
Gül ətirli, buğda cilli səməni,
Şux qamətin düşüb dildən-dillərə,
Bizim gözəllərlə elli səməni.

Təbiət və insan   Bir-birindən ayrı təsəvvür belə, edilməyən iki canlı. Təbiət insan qayğısından, nəvazişindən ilhama gəlir, insan isə təbiətin əsrarəngizliyindən, gözəlliyindən. Bu ilhamda canlı təbiətlə yanaşı, həm də rənglərin harmoniyası yer alır. Yaşılın, sarının, qırmızının, bəyazın   Budur, baharın ilk yaşılı səməni bir azdan öz rəngini çəmənlərə, düzlərə yayacaq, bu yaşılın içərisindən ağ, sarı, qırmızı çiçəklər boylanacaq, ağaclar ağlı-çəhrayılı örpəklərini atacaqlar başlarına. Beləliklə, əllərimizlə cücərtdiyimiz, yazın, ruzi-bərəkətin rəmzi səməni ömrümüzə-günümüzə növbəti baharı gətirəcək. Cücər, yar buğdanın bağrını, Günəşə doğru boylan səməni, geyin yaşıl libasını, o incə belinə bağla qırmızı kəmərini   Bayram xonçalarında şirniyyatların, rəngbərəng yumurtaların, yanar şamların fonunda nazla-nəvazişlə baharı - xoş günləri səslə. Səslədiyin bu bahar xalqımıza, millətimizə əmin-amanlıq, uğur, səadət, gətirsin. Səməni, qoy sənin şux qamətin taxıl zəmilərinə də sirayət edib əllərimizə bol ruzi-bərəkət bəxş etsin. Gətirdiyin bu baharın da qədəmləri mübarək olsun!..

***Mətanət MƏMMƏDOVA***

SİYASİ RAKURS+ÖZƏL

# Sülh istəmirsən?

## Müharibə astanandadır, hətta evinin kandarındadır!

**Bakının İrəvana irəli sürdüyü beş təklifi Ermənistanın ictimai-siyasi dairələrində çoxsaylı mülahizələrlə, eləcə də ciddi təlaşlarla müşahidə edilməkdədir. Artıq belə qənaətə gəlmək mümkündür ki, ermənilər ümumiyyətlə, 44 günlük müharibədə qarşılaşdıqları ağır məğlubiyyətlərindən nəticə çıxarmamaları ilə yanaşı, həm də ölkələrini məhvə doğru sürükləyirlər. Çünki zaman tükənir və kapitulyasiyaya imza atmış ölkənin istər hakimiyyət, istərsə də müxalifət təmsilçiləri hələ də Azərbaycanın təkliflərini ciddiyyətə almır, bununla da regionda sülhün bərqərar olmasına deyil, yeni müharibənin baş verməsi ehtimallarını artırmış olurlar.**

**Anna Karapetyan: "Azərbaycanın beş təklifi "Dağlıq Qarabağın müstəqilliyinə" olan ümidləri heçə endirir"**



Və söz yox ki, bu kimi məsələlərdə Azərbaycanın Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin dəfələrlə etdiyi xəbərdarlıqlarını da xatırltmaq yerinə düşərdi. Əgər Ermənistanın istər rəhbərliyi, istərsə də ictimai-siyasi rəyi bundan sonra da belə davam edərlərsə, onda necə deyərlər, özlərindən küsməlidirlər! Artıq nə səbr, nə də təmkin qalıb və Bakının atacağı növbəti addımı onlar üçün daha ağır nəticələrə səbəb olacaq. Kapitulyant ölkənin "ağıllı politoloqlarının" irəli sürülən şərtlərini bir kənara qoyaraq öz şərtlərini irəli sürmələri isə ümumiyyətlə, heç bir normal, düşüncəli çərçivəyə sığmayan bir məsələdir və artıq qənaətə gəlmək olar ki, belə iddialara birdəfəlik qoyulmağın vaxtı çatıb!

### Ermənistanın siyasi-ictimai rəyi ölkəni birdəfəlik məhvə doğru sürükləyir

Beləliklə, gəlin Azərbaycanın irəli sürdüyü beş təklifi ilə bağlı Ermənistanın ictimai-siyasi rəyinin münasibətlərini nəzərdən keçirək və bir daha şahidi olaq ki, bu ünsürlər əsla sülhə hazır deyillər və onların bu dəfə daha sərt şəkildə cavablarının verilməsinin zamanıdır.

"Azərbaycan bu gün hər şey edir ki, Qarabağ problemi səhifəsini bağlasın. Ermənistan tərəfindən kifayət qədər sərt və adekvat (?!-R.R.) reaksiya müşahidə edilmir. Bundan əlavə, baş verənləri heç cür sülh erasına doğru irəliləmə adlandırmaq mümkün deyil".

SİA "Spitnik-Armeniya"ya istinadən xəbər verir ki, bunu Ermənistanın "Hayatsk"siyasi araşdırmalar analitik mərkəzinin direktoru Anna Karapetyan bildirib. Onun sözlərinə görə, guya Azərbaycanın Qarabağa təzyiqlərinin məqsədi erməni əhalisinin oradan qovulmasına hesablanıb. Halbuki, Azərbaycanın dövlət rəhbərliyi dəfələrlə Qarabağ ermənilərinin Azərbaycan vətəndaşları olduğunu bəyan etməsi, eləcə də onların reinteqrasiyası üçün bütün addımlarını atmağa hazır olduğunu da bildirib. Bu ünsürlərə bir sual vermək lazımdır - Sülh istəmirsən? Müharibə astanandadır, hətta evinin kandarındadır!

Lakin göründüyü kimi məhz bu reallığın üzərindən keçərək "Qarabağın müstəqilliyi" xülyası altından çıxa bilməyən ermənilər açıq-aşkar həm təxribatçılıq vasitələrinə əl atır, həm də özlərini "sülhpərvər" kimi göstərməyə çalışırlar, hətta Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünə qarşı sərsəm iddialar irəli sürməklə ölkəmizi yaranmış situasiyaya "mane olmaqda" suçlayırlar.

Üstəlik, bu da azmış kimi, yalnız Azərbaycanı deyil, eyni zamanda Türkiyə tandemini də məsələyə qatmaqla "dqr"ə və Ermənistana qarşı məcburetmə siyasəti, yaxud hərbi və psixoloji təzyiq göstərildiyini iddia edirlər. Ancaq etiraf edə bilmirlər ki, məhz Birinci Qarabağ müharibəsi dövründə həmin bu ermənilər Azərbaycanın suverenliyinə qarşı işğalçılıq və təcüvüzkarlıq siyasəti yürüdərkən bir çox xarici ölkələrdən dəstəklər alaraq xalqımız qarşı soyqırımları həyata keçiriblər, ərazilərimizi istila, talan ediblər və bu gün həmin torpaqlarımızın böyük qismi azad edilib, yerdə qalan hissəsinin də azad edilməsi üçün Bakı bütün gücündən istifadə edir, bundan sonra da edəcək. Necə deyərlər, özü yıxılan ağlamaz!

İndi ortada 2020-ci ilin 10 noyabr, 2021-ci ilin 11 yanvar üçtərəfli bəyannamələri var və həmin bəyannamələrdə vurğulanmış bəndləri kapitulyant Ermənistan realizə etməlidir, əks halda başlarına hansı oyunların gələcəyinin də məsuliyyətini özləri daşımalı olacaqlar.

### Bu dəfə övladlarını Yerablurda deyil, küçələrdə dəfn etməli olacaqlar!

Ermənistan parlamentində təmsil olunan və keçmiş prezident Serj Sarqsyanın "Respublika"partiyasını təmsil edən, "Şərəfim var" blokunun deputatı Anna Mkrtçyan isə əslində Azərbaycanın irəli sürdüyü beş təklif üzərində manipulyasiya etməklə iddia irəli sürür ki, sən demə, Serj Sarqsyan iqtidarda olsaydı və hazırkı baş nazir Nikol Paşinyan hakimiyyəti ələ keçirməsəydi bu gün mövcud vəziyyət yaşanmazdı və s. NEWS.am-a açıqlama verən erməni deputatının sözlərinə görə, Azərbaycan Ermənistana verdiyi təklifləri vasitəsi ilə ultimatum irəli sürüb. Maraqlıdır ki, çıxılmaz vəziyyətdə olduqlarını yaxşı anlayan erməni deputatı hələ də revanşizm, anti-sülh xarakterli fikirlərini irəli sürməsi ilə yeni müharibənin onlar üçün yaxşı heç nə vəd etmədiyini anlamır, ya da anlamaq istəmir. Fakt budur ki, artıq İrəvandakı Yelablur hərbi qəbiristanlığında yer qalmayıb və yenidən cəbhə açılarsa, bu dəfə onlar öz övladlarını orada deyil, küçələrdə dəfn etməli olacaqlar. Çünki Azərbaycanın verəcəyi cavab daha sərt və amansız olacaq!

*Rövşən RƏSULOV*

# Novruz bayramında bu qidaları əsla yeməyin - DİQQƏT!



**Qida üzrə baş mütəxəssis Ağa Salamovun SİA-ya verdiyi müsahibəni təqdim edirik:**

***- Qarşıdan Novruz bayramı gəlir. Ümumiyyətlə bayram günləri ərafəsində insanlar hansı qidalardan istifadə etməlidir?***

- Bayram ərəfəsində süfrələri cürbəcür nemətlər bəzəyir. Şəkərbura, paxlava, boyanmış yumurtalar bu bayramın əvəzolunmaz nemətlərindəndir. Bu zamanlarda bəzi mağazalarda vaxtı keçmiş şəkərburalara, paxlavalara rast gəlmək mümkündür. Mümkün qədər belə məhsullardan uzaq durmaq lazımdır. Uşaq vaxtı ailəmizdəki xanımlar yumurtaları soğan qabığı, çuğundur, kok şirəsi ilə rəngləyərdilər, hətta göyərtilərlə həmin yumurtalara bəzək də vurardılar. Amma indi yumurtaları boyalarla boyayırlar və onları xonçaya əlavə edib satırlar. Çalışmalıyıq ki, təbii yolla boyanan yumurtalardan alaq. Bayram ərəfəsində 5-6 gün öncədən hazırlanmış şirniyyatları almamağa fikir verməliyik. Bayram ərəfəsində marketlərdən hazır şirniyyatların alınmasını məsləhət görməzdim. Ən yaxşısı həmin şirniyyatları evdə hazırlamaqdır.

***- Uşaq qidalarının təhlükəsizliyi ilə bağlı bazarlarda vəziyyət heç də ürək açan deyil. Ümumiyyətlə uşaq qidalarının təhlükəsizliyi ilə bağlı vəziyyət nə yerdədir?***

- Uşaqlar üçün satılan zərərli çərəzlərlə bağlı məsələlər hələ də həllini tapmayıb deyə bilərik. Çünki biz istehsalçıya deyə bilmərik ki, bu məhsulu istehsal etmə və ya mağazalara qadağa qoya bilmərik ki, bu məhsulu satma. Biz maarifləndirmə işləri apara bilərik ki, valideynlər öz övladlarına bu məhsullardan verməsinlər. Çipsini misal göstərmək olar ki, onun tərkibinin kartofdan hazırlandığı deyilsə də əksinə onun hazırlanmasında trans yağlardan istifadə edilir. Təbii ki bu da uşaqların orqanizminə ciddi şəkildə təsir edir. Həmin yağlar qaraciyərə təsir göstərir, şəkər xəstəliyi, xərçəng xəstəliyi kimi xəstəliklərin yaranmasına səbəb olur. Unutmaq olmaz ki, biz genlərimizi yandırıb-söndürə bilirik. Ağartı məhsullarını istehlak edirikə ağartı məhsulları genini aktivləşdiririk. Yox əgər istifadə etmiriksə həmin genləri söndürürük. Ziyanlı çərəzləri istehlak etdikdə həmin genləri aktivləşdiririk. Bu zaman mutasiyalar baş verir. Bunu ginekoloqlar təsdiqləyə bilərlər ki, bu zaman gələcəkdə dünyaya gələn uşaqlar şəkərli diabet xəstəliyi ilə doğulur. Bir neçə ciddi xəstəliklərlə dünyaya gəlir.

***- Şəkər xəstələri üçün satılan qidalar nə dərəcədə sağlamdır?***

- "Aspartam" deyilən bir maddə var ki, bu qazlı içkilərdə istifadə olunur, həmçinin dietik yeməklərdə də dadlandırıcı kimi istifadə olunur. Dietoloqları qınayıram ki, öz pasientlərinə bu cür hazır yeməkləri tövsiyyə edirlər. Həmin dietoloqlar menyu yaza bilmirlər. Bu, savadsız dietoloqların ən asan yolla işbazlara yönləndirdiyi müştərilərdir. Hansı ki, arıqlamaq üçün dietoloqa üz tutur, həmin dietoloqlar isə onları hazır yeməklərə yönəldirlər. Bunlar asan yoldur. Çətin yol isə düzgün dietanı yazmaqdır. Hər müştəriyə düzgün menyu yazmaqdır. Bunu da hər dietoloq bacarmır. Hazır dietik məhsullar insulin səviyyəsini pozur. Əksinə insanın orqanizmini şəkər xəstəliyinə meyillləndirir. Ona görə düşünürəm ki, hazır dietik yeməklərdən uzaq durmaq lazımdır. Məsləhət görərdim ki, özləri üçün detokslar hazırlasınlar, yağlı qidalardan uzaq dursunlar.

***- Yaz-yay aylarında kremli məhsullardandan zəhərlənmə halları baş verir və bunun qarşısı necə alınmalıdır?***

- Ümumiyyətlə kremli məhsullar yumurtanın ağından, yağdan, qaymaqdan hazırlanır. Bunlar riskli qidalar sırasındadır. Havaların isti olduğu zamanlarda əksər yerlərdə saxlanma şəraiti yaxşı olmur. Yaxud tortu bişirirlər. Həftələrlə satılmayan vitrinlərdə qalır. Bu da mikrobioloji çirklənməyə səbəb olur. Belə hallar zəhərlənmələrə yol aça bilər. Ona görə məhsulun təzə olduğunu yoxlamaq lazımdır. Zəhərlənmə hallarının olmaması üçün şirniyyat evlərində yumurtaların təzəliyi yoxlanılmalıdır. Yumurtalar çox istiyə məruz qalmamalıdır. Belə olduqda yumurtalardan zəhərlənmə halları baş verir.

***- Bu gün əksər insanlar allergiyadan əziyyət çəkir. Hansı qidalar allergik xəstəliklərə səbəb olur?***

- Allergik reaksiyalar müxtəlif məhsullarda var. Sitrus meyvələrinə, süd, ağartı məhsullarına, ədviyyatlara qarşı allergiyalar vardır. Bunları təyin etmək lazımdır ki, bu insanın nəyə qarşı allergiyası var və həmin məhsullardan uzaq durmalıdır. Ədviyyatlar daha çox allergik reaksiyalar yaradır. Bəzən görürsünüz ki, duz və istiotdan istifadə etmək həmin şəxslərdə asqırığa yol açır. Müxtəlif yeməklərə qarşı, kükürd tərkibli yeməklərə qarşı allergik reaksiyalar ola bilər. Allergiyası olan şəxs mütləq şəkildə həmin məhsullardan istifadəni ya minumuma endirməli, ya da həmin məhsullardan istifadə etməməlidir.

*Abutel İlhamqızı*

# Qarabağda

## bayram tonqalları... gözlərdə sevinc yaşları...

**30 ildi baharsızdı Qarabağ. Gəlirdi bahar, lakin Qarabağ onu görüb qaş-qabağını tökürdü, qara bəxtindən, qara taleyindən danışırdı. 30 ilinin acısı, ağrısı, göz yaşı, həsrəti, hicranı baharı qaçaq edirdi bu yerlərdən. Gəlirdi bahar, gəldiyinə də peşman olub çıxıb gedirdi.**

Qarabağın bağrına min bir adda gülü, çiçəyi ilə məlhəm ola bilmirdi. Qəlbdə nisgil vardı-bir qərinəlik nisgil. Yapışmışdı Qarabağın ürəyinə, xərçəng kimi xaşələnib dolaşmışdı köksünə. Bu qədər nisgilin qarşısında bahar nə edə bilərdi? Qarayaylıq Qarabağın başına allı-güllü şalını sala bilərdimi? Ağacının tumurcuğunu çiçəyə çevirməyə gücü çata bilərdimi? Gücü çatardımı torpağından bircə gülü, çiçəyi göyərdib günəşə boylandıra? Qarabağın gözlərindən nisgili, üzündən kədəri silə, əynindən siyah donunu çıxara bilərdimi? Buna kimin, nəyin gücü çatmışdı ki, baharın da gücü çata.

Qarabağ yasdaydı, matəmdə, ələmdəydi. Özünün özüylə əhdi-peymanı vardı: nə qədər ki, köksünə yad addımlar dəyir, üzü gülməyəcəkdi, saçına sığal çəkməyəcəkdi, qara bağlayıb yas tutacaqdı. Nəyinə lazımdı ki, bahar? Nəyinə lazımdı Novruz, nəyinə lazımdı bayram? Nə yanında yurrddaşı vardı, nə bir qıfılsız qapı, nə bir evdən işıq gəlirdi, nə bir həyətdə hənirti vardı. 30 ildi sükut çökmüşdü üstünə. Nə qədər hayqırırdısa, nə qədər ah-nalə edirdisə, bu sükutu yara bilmirdi. Dörd bir yanı bomboş, göz baxdıqca uzanan ərazilər, dağıdılmış, viran edilmiş evlər, ot basmış, yolu, cığırı itmiş evlər idi. Hanı o tanış üzlər, haradadır? Hanı o tanış əllər, torpağın bağrını yaran, altını üstünə çevirən, tərini zər edib yerə ələyən insanlar, haradadılar? Axı torpaq sükutu sevmir, insanların onun bağrını yarmalarını, bel, kərənti toxunuşlarını, köksünə toxum səpilməsini, bar verməsini sevir.

Axı torpaq altında uyutduğu bu ulu yurdun qocamanlarının davamçılarının addım səslərini duymaq istəyir. Haradaydı onlar? Haradaydı bu ellərə yaraşıq, səsi-küyü asimana qalxan uşaqlar? Haradaydı ağac əkib kölgəsində əyləşən, ocağa, yurda yaraşıq ağsaqqallar, ağbirçəklər? Haradaydı Qarabağın at üstündə



igidləri, yaşmaqlı qız-gəlini?..

Bu dağlar təşnəydi qoyun-quzu mələşməsinə, haradaydı onlar? Haradaydı axşamçağı mal-heyvanın otlaqlardan dönərkən süd dolu döşlərinin ağırlığından özlərini çəkib gətirə bilmədikləri o gözəl mənzərə? Haradaydı təndirlərdə bişən çörəyin havaya hopan ətri? Haradaydı Novruzqabağı çərşənbələrin hər birini toy-bayram edən insanlar, cavanların dağ başında çatdıqları, şöləsi ərşə qalxan Novruz tonqalları? Qarabağın bu dərdinə, ələminə bahar məlhəm ola biləcəkdimi? Xeyr, ola bilməzdi.

Bu səbəbdən Qarabağ bahar istəmirdi. Könlünün bir an da olsa açılmasını istəmirdi. O, qış ömrünü yaza çevirənləri gözləyirdi. Onlar gələcəkdilər. Mütləq gələcəkdilər. Yurdlarını, torpaqlarını bir-bir azad etməyə gələcəkdilər. Başına qara şalını salıb yollara dikilən qan yaşlı gözlərlə, həsrətli baxışlarla, içinin təşnəsi olan köksləriə Qarabağ o günü gözləyirdi. Gözləyirdi ki, igidləri gəlsinlər, onu yağıdan alsınlar. Dağlarının, çəmənlərinin rəngindən rəng alan o müqəddəs bayrağı sinəsinə taxsınlar. Qarabağ insanını istəyirdi. Səsinə həsrətdi illərdi. Qapılardan qıfılları açanı, yollardan, cığırlardan otuavarı təmizləyəni istəyirdi. Bu sökük, viran evləri səmtindən tanıyanları istəyirdi. Onun ömrünə baharı tək bunlar gətirə bilərdi.

2020-nin payızıydı. Qarabağ artıq qışdaydı. Sazaq ilməli şalını çiyninə salıb ümidsizcəsinə qışa doğru gedir, "Bu il də belə ötür",- deyirdi. Lakin xəbərsizdi ki, bu xalq, onun rəhbəri ötən illərin heç birində bircə an da durmayıb. Onun xilası üçün gecə-gündüz nə lazımsa eləyib. Sülhlə onu geri almaq istəyib. 1990-cı illərdə uğrunda şəhid olanlar kimi şəhidi olmasını istəməyib bu dövlət. Lakin səsinə səs verməyənləri görəndə müharibədən başqa yolu da görmədi. Torpaq namus, torpaq ardır, düşməndə qalmayacaqdı ki... Böyük sərkərdənin çağırışıyla ordu ayağa qalxdı, sənə doğru yollandı, Qarabağ. Oğulların bir andaca qartal kimi şığıdılar düşmənin üzərinə. Çıxardılar əli qanlı, gözü ac, başqasının hesabına adam olanları əllərindən.

30 illik sükutunda bir simfoniya səsləndi:qəhrəmanlıq, igidlik, mübarizlik, həmrəylik simfoniyası. Darmadağın etdi sükutunu bu simfoniya. Dalğalandı dalğa-dalğa əllərində, igidlərin nərildədikcə, irəliyə getdikcə bu dalğalar sevdiyin bayrağının dalğasına çevrilib hər gün bir elində, yurdunda ucaldı, dalğalandı. 90-larda itirdiyin övladlarının övladlarıydı onlar. Şəhid oğlu-igidlərdi. Hamısı gənc: biri nişanlı, biri sözlü, birinin toyu dünən olmuşdu, birininki sabahdı. Biri dünən ata olmuşdu, biri xəbərsizdi ata olacağından. Onlar üçün bütün sevgilərdən öndə səndin. Səni deyib gəlmişdilər Qarabağa. Onsuz "nə namus, nə qeyrət, nə övlad, nə toy-düyün", - deyirdilər.

Düşmənə qan uddurdu oğulların. 30 illik acılarını köksündən alıb yağıya verdilər. Başındakı qara şalla boğub onları, öldürdülər. Üzündəki həsrət, kədəri qoparıb əbədilik düşmənə verdilər. 44 günlük payıza baharı gətirib bir qərinəlik qışı qəddarlara sovqat etdilər. Addımları yaralarına məlhəm oldu. Otuz ildə qanı axan yaraların qaysaqlandı.

Ana oldun əsgərinə. Aldın qoynuna onları, payızının xəzəlini yastıq etdin başlarının altına. Amma çox sayda da övladların yaralandı, şəhid oldu. Laylay dedin balalarına, anasına yetişməmiş ana oldun şəhidinə, basıb onu köksünə göz yaşını leysan etdin.

Axı belə olmasaydı, ömrünə bir daha gəlməzdi ki, bahar. Axan qanlar qara bağrını al etməzdi belə olmasaydı. Oğul torpağın payıdır, pay oldular hər bir qarış torpağın üçün. Olmasaydılar, xilaskarın olardımı? Nə yaxşı ki, bu Vətəndə bu cür gənclər yetişmişdi ötən illərdə. Xilaskarın oldular. Ömrünün 30 il sonra yazı, baharı oldular. Zəfərin, qələbən oldular. Toysuz, nişansız, övladsız bu dünyadan köçdülər. Cənnətdə ata olan oldu. Dünyaya körpələr gəldi, ilk gündən şəhid övladı...

Payızına gələn baharın üzünə güldün, onunla əl-ələ verib qarşıdakı qışı qamçılayıb birbaşa bahara getdin, Novruza getdin. Bahara ötən il qoynunu açdın. Soyundun qara donunu, allı-güllü libas geyindin. İzn verdin ağacların çiçək açsın, xarıbülbül başını çiynindən qaldırsın.Tonqallara izn verdin, çatıldı sinəndə. Bizdə adətdir ki, yaslı evlərin həyətində tonqal qalanmaz, qonum-qonşu gələr, tonqalı çatar. Ötən il şəhidlərimiz vardı, qara bayramları vardı Novruzda, ürəyimizcə tonqal çata bilmədik.

Budur, Novruz qapının astanasındadır. Onsuz da çərşənbələrdə çatılıb ocaqların, bayram gecəsi də alovlandıqca gözümüzdən sevinc yaşları axacaq. Bu tonqalların qoru düşmənin gözünü kor edəcək. İstisi onlara zülm, işgəncə olduqca, torpaqlarımız üçün bar-bərəkətə, ruziyə çevriləcək. Hələ bu nədir ki... Qoy vuranəliklərin abadlaşsın, qoy 30 ildə dağıdılanlar yerinə gətirilsin, yurddaşların sənə qayıdacaq, hər həyətdə tonqallar çatılacaq. Bax onda düşmən uduzduğunu ikinci dəfə dərk edəcək. Əzəli torpağın əbədi olduğunu anlayacaq. Qoy tonqalların gur yansın, Qarabağ. Sənə gələn bahar, Novruz mübarək olsun!

***Mətanət MƏMMƏDOVA***

---

# "Azərbaycan alternativ və bərpaolunan enerji təchizatçılarından biri olacaq"

**"Dünən ölkəmizin həyatında əlamətdar hadisə baş verdi. Belə ki, dünyada çox tanınmış və təcrübəli şirkət olan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib.**

Onun sözlərinə görə, bu stansiya ölkəmizin ildən-ilə enerjiyə artan tələbatını ödəməklə bərabər, ixrac imkanlarımızı daha da genişləndirəcək: "Xüsusi vurğulamaq istərdim ki, beynəlxalq aləmdə baş verən geosiyasi kataklizmlər və pandemiyadan qaynaqlanan siyasi, iqtisadi və humanitar böhran fonunda ölkəmizdə həyata keçirilən möhtəşəm layihələrə və bütövlükdə görülən işlərə görə əlbəttə ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnatdarıq. Onun dünyanın nüfuzlu ölkələri ilə həm çoxtərəfli və ikitərəfli münasibətlərdə imza atdığı diplomatik uğurların nəticəsidir ki, Azərbaycan etibarlı tərəfdaş ölkə kimi ölkəmizdə nəhəng layihələr gercəkləşdirilir. Daha açıq desək, dünya səviyyəli investorlar əlverişli biznes ölkəmizdəki mühiti nəzərə alaraq böyük həcmli sərmayə qoyuluşu edirlər. Məhz bu təməlqoyma mərasimində iştirak edən dövlət başçımız cənab İlham Əliyevin çıxış edərək bütün bu məsələlərə öz münasibətini bildirmişdi.

Möhtərəm Prezidentimiz də çıxışında böyük həcmdə xarici sərmayənin Azərbaycanın qeyri-neft sektoruna qoyulmasının dövlətimizin əsas prioritetlərimizdən biri olduğunu vurğuladı. Bildiyimiz kimi uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Lakin son illərdə dövlətimizin qeyri-neft sektorunun inkişaf etdirilməsi sahəsindəki həyata keçirilən uğurlu siyasət sayəsində Azərbaycan bugün həm də xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkələrdən biridir və elektrik enerjisinin ixracı ilə bağlı böyük potensiala malikdir. Bugün Azərbaycan dörd qonşu ölkəyə enerji ixrac etsə də, mövcud imkanlar daha yeni bazarlara çıxmaq iddiasındadır.



Qeyd etdiyimiz kimi "Masdar" şirkəti Ölkəmiz üçün dost olan Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Azərbaycanın BƏƏ ilə həm ikitərəfli həm də çoxtərəfli əməkdaşlıq çərçivəsində bütün sahələr üzrə çox yüksək səviyyəli münasibət qurmuşdur. BƏƏ ilə ticarət ələqələrimiz artır və son illər turizm sahəsində geniş imkanlarımız var və əlaqələrimizin böyük perspektivi var. Ümumiyyətlə bu ilin ilk ayında ölkəmizdə energetika sahəsində çox uğurlu addımlar atılıbdır. Bildiyimiz kimi yanvar ayında ölkəmizdə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevralda "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur. Yəni hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, artıq 385 meqavat gücündə yaradılıbdır. Mətbuatdan da oxuduğumuz kimi bu il ərzində əlavə güclər ölkəmizin ümumi enerji sisteminə daxil ediləcəkdir. Möhtərəm Prezidentimiz öz çıxışlarında, eləcə də dünənki çıxışında bərpaolunan enerji növlərinin inkişaf etdirilməsinin dövlətimiz üçün prioritet olduğuniu dəfələrlə səsləndiribdir.Bütün bunlar sözsüz ki, Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır. Bu isə Azərbaycanı nəinki xam neft, neft məhsulları və təbii qaz, eləcə də, elektrik enerjisinin böyük istehsalçı və ixracatçı ölkələr sırasına daxil edir. Əminik ki, İnşallah Azərbaycan Avropanın neft və qaz təchizatçılarından biri kimi, həm də alternativ və bərpaolunan enerji təchizatçılarından biri olacaqdır".

***Abutel İlhamqızı***

# Novruz bayramı milli sərvətimizdir

**Təbiətin canlanmasının, birlik və bərabərliyin simvolu olan Novruz Qafqazda, Mərkəzi Asiyanın türk respublikalarında XX əsrin əvvəllərindən başlayaraq 1960-cı illərə qədər bəzi siyasi səbəblərə görə qadağan edilmiş, onun unutdurulmasına çalışılmışdır. Lakin ötən əsrin 90-cı illərindən etibarən öz müstəqilliklərini elan edən postsovet məkanına daxil olan türk respublikaları keçmişlərinə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərə diqqəti artırmış və Novruz bayramı da dövlət səviyyəsində rəsmi bayram kimi qeyd olunmağa başlamışdır.**

Beləliklə, uzun illər təqiblərə məruz qalmasına, hətta keçirilməsi belə qadağan olunmasına baxmayaraq, türk xalqları Novruz bayramına sahib çıxmış və onu bu gün də yaşatmaqda davam edirlər. Azərbaycanda milli adət-ənənəyə uyğun olaraq Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzi sayılır. Hər bir azərbaycanlı səməni göyərtməklə növbəti ilə bərəkət, bolluq, ruzi arzulayır. Hələ lap qədimdən insanlar Novruz bayramına 4 həftə qalmış hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, mahnı oxumaqla Oda, Atəşə, Günəşə etiqadlarını ifadə etmişlər. Bu adət-ənənələr hazırda da davam etdirilir.

Qədim bayramlardan olan Novruz insana həyat verən dörd ünsürün - suyun, odun, torpağın və yelin (havanın) isinməsi, "dirilməsi" istəyi ilə bağlı yaranmışdır. Buna görə də çərşənbələrin adları məhz bu amillə əlaqələndirilmişdir. Qədim inanclara görə, insana fayda verməyən "ölü" hesab olunur. Məhz bu mənada torpağın məhsul verməsini dayandırması, onun donması insanın ən zəruri həyat nemətlərindən məhrum olması kimi dərk edilirdi. Yığılan azuqə ehtiyatı tükəndikcə, insanda torpağı oyatmaq, əkmək arzusu artırdı. Torpaq isə birdən-birə "dirilmirdi". Bunun üçün su, istilik və yel lazım idi. İnanclara görə, bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri "dirilmiş", bununla əlaqədar şənlik və mərasimlər təşkil olunmuşdur. Elə bu arzu ilə bağlı xalq çox qədimdən həmin dörd ünsürlə bağlı özünün zəngin adət-ənənəsini, etiqad və ayinlərini yaratmışdır. Təzə ilin başlanmasına dörd həftə qalmış bu ayin və etiqadlar icra olunmağa başlayır. Hər bir xalq Novruz bayramı ilə bağlı etnik, yerli və milli xüsusiyyətlərinə uyğun olaraq özünəməxsus mərasim nəğmələri, rəqslər, xalq oyunları yaratmışdır. Azərbaycanda Novruz bayramı qabağı adətən evlərdə, həyətlərdə abadlıq, təmizlik işləri aparılır, ağaclar və güllər əkilir. Novruz bayramında cürbəcür şirniyyat növləri - qoğal, paxlava, şəkərbura hazırlanır, plov bişirilir, rəngbərəng yumurtalar boyanır, xonça bəzənir, tonqal qalanır, səməni qoyulur. İnsanlar Novruzqabağı əzizlərinin ruhunu anır, küsülülər barışır, qohum-qonşu bir-birinə qonaq gedir, pay göndərirlər. Cavanlar at çapır, dirədöymə oynayır, Tənbəl qardaş, Kosa-kosa kimi tamaşalar göstərirlər. Azərbaycanın elə bir regionu yoxdur ki, orada Novruz bayramı təntənə ilə qarşılanmasın. Martın 20-dən 21-nə keçən gecə gündüz ilə gecə bərabərləşir. Ana torpağa nəfəs gəlir, yerin donu açılır, ağaclar bahar suyu içir, təbiət qış yuxusundan oyanır, hər şey cana gəlir. Yurdumuza, elimizə, obamıza yaz gəlir. İnsanlar böyük təntənə ilə Novruzu qarşılayırlar.

Novruz bayramı hər il mart ayının 20, 21, 22-də qeyd olunur. İnsanlarda, quşlarda hətta qarışqalarda belə bir tələş hiss edilməyə başlayır. Hər bir ailədə əsas yük qadınların üzərinə düşür. Ev qadınları evin əşyalarını həyətə tökər, otaqlar ağardılar, qışın ağır havası evdən təmizlənər, baharın birinci günü təmiz libas və təmiz vücudla qarşılanar. Təbiətin insanlara töhfəsi olan Novruz bayramının hər gəlişi əsrlərdən bəri Azərbaycanda bolluğun, bərəkətin




*Fuad Heydər, YAP Səbail rayon təşkilatının təlimatçısı*

və xeyirxahlığın təcəssümü kimi qəbul edilmişdir. Gecə ilə gündüzün bərabərləşdiyi ilk bahar günündə yurdumuza qədəm qoyan bu bayram insanları daim birliyə, sülhə və əmin-amanlığa səsləyir. Bahar mərasimləri, adət-ənənələri əsrlərin sınağından çıxaraq, ulu babalarımızdan bizə yadigar qalmış misilsiz ərməğandır. Novruz əsrlərdir ki, milli, dini adət və ənənələrimizi nəsillərdən-nəsillərə ötürərək bu günlərə gətirib çıxaran bayramdır. Buna görə də Novruz bizim ümumdövlət, ümumxalq bayramımızdır. Xalqımızın sevə-sevə qeyd etdiyi bu bayram bizim adət-ənənələrimizi əsrlər boyu yaşadıb bu günlərə gətirdiyi kimi, bizi də bir xalq olaraq birləşdirir, xalqımızda daha möhkəm birlik yaradır və həmrəyliyə xidmət edir. Novruz bütün türk dünyasına xas olsa da, Azərbaycanda daha möhtəşəm qeyd olunur. İnkarolunmaz faktdır ki, Novruz bayramının təşəkkül tapmasında, inkişaf etməsində xalqımızın mühüm töhfəsi, payı vardır. Sovet hakimiyyəti illərində Novruz bayramının keçirilməsinə sərt qadağalar qoyulsa da, xalqımız bu əziz bayramı həmişə qeyd etməyə can atmışdır.

Azərbaycana rəhbərliyinin birinci dövründə Ulu Öndər Heydər Əliyev də sovet hakimiyyətinin qadağalarına baxmayaraq, milli ruhun yüksəlişinə təkan verən amillərə xüsusi hörmətlə yanaşmışdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Ümummilli Lider həyata keçirdiyi dövlət quruculuğu prosesi ilə paralel surətdə mədəni-mənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərinə də başlamışdır. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarılmışdır. Ulu Öndər hər il qədim milli bayramımız olan Novruzda əhali ilə bayramlaşmağa çıxar, azad və müstəqil xalqımızın Novruz sevinclərindən zövq alardı. Təbiət bayramı - Novruzun ölkəmizdə dövlət səviyyəsində qeyd edilməsi həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiramın əlamətidir. Bu, keçmişimizi bu günümüzlə bağlamaq, onu qoruyaraq gələcəyə aparmaq deməkdir. Novruzun dövlət səviyyəsində bayram edilməsi isə onun əhəmiyyətini daha da artırır. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən Ulu Öndər bu bayram haqqında demişdir: "Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir". Hər il Ulu Öndərin bayram münasibətilə Azərbaycan xalqına təbrikləri Novruzun ruhundan doğurdu. Ümummilli Liderin bayram şənliklərində iştirakı, Kosa ilə yumurta döyüşdürməsi, Bahar qızı ilə söhbətləri Novruz tədbirlərini daha da şənləndirir, insanların sevincinə səbəb olurdu.

Hazırda bu ənənələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Novruzu milli-mənəvi dəyərlərimizin təcəssümü adlandıran dövlətimizin başçısının hər il bayram şənliklərinə qatılması, əhali ilə bayramlaşması, Bakının qədim meydanındakı tonqalı alovlandırması bayram ovqatını daha da artırmaqla yanaşı, xalqla iqtidar arasında sıx vəhdəti də sübut edir. "Novruz gələcəyə inam hissi aşılayır, könüllərdə ən ali duyğuları oyadır, insanları daha xeyirxah, mərhəmətli və mehriban olmağa çağırır", - deyən Prezident İlham Əliyev Novruzun insanlarda qurub-yaratmaq əzmi aşılayan bayram olduğunu qeyd etmişdir.

Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz bayramı artıq UNESCO tərəfindən beynəlxalq səviyyədə də qeyd olunur. Azərbaycanın Birinci vitseprezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində xalqımızın bu əziz el bayramı artıq UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. 2010-cu il fevralın 23-də isə BMT Baş Məclisi 21 mart tarixini Beynəlxalq Novruz Günü elan etmişdir. Bu qərarı əslində dünyanın bir çox ölkələrində, xüsusilə də türk coğrafiyasında yaşayan xalqların dünya sivilizasiyasına verdiyi mədəni töhfə kimi qiymətləndirmək olar. Novruz bayramı bütün dünyada 300 milyondan artıq insan tərəfindən yeni ilin başlanğıcı kimi qəbul olunur. Artıq 3 min ildir ki, Novruz Balkanlarda, Qara dəniz hövzəsi regionunda, Qafqazda, Mərkəzi Asiya, Yaxın Şərq və digər regionlarda qeyd edilir. Mübaliğəsiz demək olar ki, Novruz bir çox türk xalqları ilə bərabər, Azərbaycan xalqının milli-mənəvi varlığını bütün dolğunluğu ilə əks etdirən, ümumxalq səviyyəsində qeyd olunan, etnik təfəkkürün ayrılmaz funksional səviyyəsinə çevrilən bayramdır. Novruz ictimai həyata yeni həvəs gətirən, milli adət-ənənələri yaşadan el bayramıdır. Dolayısı ilə Novruz ənənəsini davam etdirən hər kəs mədəniyyət daşıyıcıları olmaqla yanaşı, ortaq dəyər kimi bu ənənələri qoruyurlar. Novruz, xalqın ortaq duyğu və düşüncələrini dilə gətirən, türk mədəniyyətinin qorunub yaşadılmasında əhəmiyyətli yeri olan qədim el bayramımızdır.

Xalqımız bu il Novruz bayramını yüksək əhvali-ruhiyyə ilə qeyd edir. Çünki xalqımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin birbaşa rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində Qarabağ uğrunda apardığı ədalətli, müqəddəs və şərəfli Vətən müharibəsində möhtəşəm Qələbə qazandı. Məhz bu möhtəşəm Qələbəyə görə xalqımız builki Novruz bayramını qəhrəman və qalib xalq kimi qeyd edir.

Fürsətdən istifadə edərək, özündə baharın gəlişini və təbiətin canlanmasını əks etdirən Novruz bayramı münasibətilə hər birinizi təbrik edir, möhkəm cansağlığı, uzun ömür, bol ruzi-bərəkət, səadət və xoşbəxtlik arzu edirəm.



## Əməkhaqlarında baş verən ardıcıl artımlar nəyi şərtləndirir?

"Prezident cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı dayanır və bunun nəticəsidir ki, sosial sahədə islahatlar geniş miqyas alıb və əhalinin sosial müdaafiəssinin gücləndirilməsi istiqamətində ardıcıl addımlar atılır. Xüsusilə son illərdə bu islahatlar inqilabi xarakter daşıyıb. Məsələn, hələ 2019-cu ildə sosial sahədə genişmiqyaslı islahatlar həyata keçirilməklə əməkhaqları və digər sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə isə daha çox artdı". Bu sözləri SİA-ya açıqlamasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov deyib.

Onun sözlərinə görə, əməkhaqqında ciddi artımlara uyğun olaraq 2020-ci ilin əvvəlindən pensiyalar indeksləşdirilərək 16,6 faiz, 2021-ci ilin əvvəlindən 11,4 faiz artırıldı: "Habelə 2021-ci ilin əvvəlindən şəhid ailələrinin, müharibə əlillərinin təqaüdləri orta hesabla 60 faiz artırıldı, yeni təqaüd növləri təsis olundu. 2022-ci ilin əvvəlindən də yeni sosial islahata paketi kimi, əmək haqqı, pensiya və s. sosial ödənişlər növbəti dəfə artırılıb. 3,4 milyon şəxsi əhatə edən bu artımlar üçün illik əlavə olaraq 2,1 mlrd. manat ayrılıb. Ümumilikdə, son 4 ildə minimum pensiya məbləği 2,2 dəfə artırılaraq 110 manatdan 240 manata, minimum əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Həmçinin 2018-ci ilin əvvəli ilə müqayisədə ölkəmizdə orta aylıq pensiyada orta hesabla 65 faiz, orta aylıq əmək haqqında 35 faiz, median əmək haqqında 74 faiz artım qeydə alınıb.

Fazil Talıbov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, son dörd ilə nəzər salsaq görərik ki, bu dövrdə ölkə əhalisinin böyük bir hissəsini əhatə edən üç əsas sosial islahat paketi icra olunub: "Bu paketlər üçün illik ayrılan əlavə vəsait 6 milyard manata çatıb. 2018-2021-ci illərdə ölkəmizdə məşğulluq imkanlarının artırılması, eləcə də qeyri-leqal məşğulluğun qarşısının alınması üçün aparılan kompleks işlər, eyni zamanda minimum əməkhaqqında artım və s. nəticəsində əmək müqavilələrinin sayında da 30 faiz və ya 400 minə yaxın artım baş verib. Qeyd olunan artımlar əməkhaqqı fondunda da həmin dövrdə 2 dəfəyə yaxın artımı təmin edib. 2022-ci ilin yanvar-fevral aylarında da Azərbaycanda əmək haqqı fondu 8,4 faiz artıb. Bütün bu proseslər vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişləri özündə ifadə edir".

**Arzu Qurbanzadə**

# Azərbaycanın

## enerji siyasətinin yeni üfüqləri

**Azərbaycanın neft-qaz və enerji strategiyası onun milli təhlükəsizlik konsepsiyasının əsas mahiyyətini təşkil edir. Beynəlxalq praktikada milli təhlükəsizlik dedikdə, dövlət təhlükəsizliyi, hərbi-sərhəd, təhlükəsizliyi, informasiya, intellektual, sosial-siyasi, ictimai vətəndaş cəmiyyəti təhlükəsizlikləri, nəhayət ekoloji, yanacaq-energeika və iqtisadi təhkükəsizliyin cəmi başa düşülür.**

Bir çox parametrləri ilə iqtisadi təhlükəsizlik strategiyası xaricdən heç bir müdaxilə və təzyiq olmadan hər bir cəmiyyətin iqtisadi inkişafının forma və yollarını müstəqil surətdə müəyyən etmə, təmin etmə və inkişaf etdirmə qabiliyyətinin sütunu olan iqtidarın mövcudluğunu ehtiva edir. İqtisadi təhlükəsizlik üç əsas istiqamətin qarşılıqlı vəhdətini təmin edir ki, buraya iqtisadi müstəqillik, milli iqtisadiyyatın rəqabətə dözümlülüyünə istinad edən sabitliyi, nəhayət, iqtisadi inkişaf qabiliyyətliliyi daxildir.



*Həsən Bayramov*
*Pedaqoji elmlər doktoru, professor*

Bütün bu çoxşaxəli parametrlərdə neft-qaz-enerji üçbucağı müstəsna əhəmiyyət kəsb edir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərləri, nəhayət, Bakı-Tbilisi-Qars dəmiryol xətti kimi nəhəng layihələrin uğurlu reallaşdırılması, dünyanın aparıcı şirkətlərinin ölkəmizdə beynəlxalq əhəmiyyətli iri maliyyə tutumlu layihələrə cəlb edilməsi ölkəmizin qlobal iqtisadi məkana tarixi transformasiya prosesini uğurla təmin etməkdədir.

Hələ vaxtı ilə Davos İqtisadi Forumunun hesabatlarında ölkəmizin beynəlxalq iqtisadi rəqabətqabiliyyətinə görə 40-cı yerlərdə, MDB məkanı üzrə isə birinci yerdə qərarlaşması fasiləsiz olaraq qlobal iqtisadi layihələrə etibarlı tərəfdaş olaraq uğurla qoşulmağa stimul vermişdir. Bu baxımdan alternativ enerjidən istifadə imkanlarını səfərbər etməklə ölkəmizin iqtisadi-enerji rəqabətqabiliyyətliliyinə yeni dividentlər əlavə etmək baxımından martın 15-də Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. Bu stansiya vasitəsilə ölkəmiz nəinki alternativ enerji mənbələrindən istifadə imkanlarını genişləndirəcək, həm də dünya enerji nəhəngləri ilə beynəlxalq əməkdaşlığın yeni mərhələsinin üfüqlərini də müəyyənləşdirəcək.

Hələ bundan öncə Səudiyyə Ərəbistan Krallığının ”ACWA Pover” şirkətinin Azərbaycanda 240 MWt ”Xızı Abşeron” Külək Elektrik stansiyasınında təməlqoyma mərasimi keçirilmişdir.

İqtisadi hesablamalara görə alternativ enerji mənbələrinin istehsalı 2021-ci ildə 10%, növbəti 5 ildə isə daha 50% artaraq 2025-ci ildə qlobal enerji istehsalının 33%-ni təşkil edəcəkdir. Elmi proqnozlara görə 2025-ci ildə elektrik enerjisi istehsalının artım gücünün 95%-i bərpa olunan enerji mənbələrinin payına düşəcəkdir. Ən çox artım isə günəş və külək enerjisi istehsalında, müvafiq olaraq 60 və 30% ətrafında qeydə alınacaq.

Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 27000MVt, o cümlədən, külək enerjisi üzrə 3000 MVt, günəş enerjisi üzrə 23000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmində qiymətləndirilir. Günəş enerjisi üzrə demək olar ki, bütün ölkə ərazisində layihələrin həyata keçirilməsi mümkündür. Külək enerjisi üzrə isə Xəzər akvatoriyası, Abşeron yarımadası, Bakı, habelə Xızı rayonu daha əlverişli sayılır. Qiymətləndirmələr göstərir ki, küləyin sürəti 3-4 m/s olduğu halda elektrik enerjisinin əldə edilməsi mümkündür. Bakıda küləyin orta sürəti 11 m/s-dır. Bu potensial



işğaldan azad olunmuş torpaqlarımızda daha da güclüdür. Günəş enerjisi əsasən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında, külək enerjisi isə Laçın və Kəlbəcər rayonlarında daha yüksək qiymətləndirilir. Kəlbəcər rayonunun dağlıq ərazilərində küləyin orta illik surəti 7-8 m/s təşkil edir ki, bu da külək enerjisinin istehsalı baxımından çox əlverişlidir. Azərbaycanda yerli su ehtiyatlarının 20%-nin Qarabağda formalaşdığı nəzərə alınmaqla, Tərtər, Bazarçay, Həkəri kimi əsas çaylar və onların qollarından elektrik enerjisi istehsalı çoc perspektivli və əlverişlidir.

Birləşmiş Ərəb Əmirliyiyi ilə bağlanmış memorandum Azərbaycanda bərpa olunan enerjinin tətbiqini dəstəkləmək, eyni zamanda dənizdə külək enerjisindən istifadə, bu enerji hesabına ”yaşıl hidrogen” istehsalı, karbon tutulması, istifadəsi və saxlanması, həmçinin digər tədbirləri əhatə edən interqrasiya olunmuş həllərə dair potensial əməkdaşlıq imkanlarını ehtiva edir.

Nazirliklə şirkət arasında ”Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa olunan və təmiz enerji sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumunu Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi ilə ”Masdar” şirkəti imzalayıblar. Memorandum Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa olunan enerji mənbələrinin tətbiqi sahəsində potensial əməkdaşlıq imkanlarını müəyyən edir.

Bağlanmış Memorandum aşağıdakı yenilikləri ilə əlamətdardır:

”Ölkənin energetika sahəsində əlamətdar tarixi hadisədir. 230 meqavat gücündə olan bu stansiya ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək və Azərbaycanın ixrac imkanlarını genişləndirəcək;

”Layihənin icraçısı dünyada tanınmış və böyük təcrübəyə malik olan ”Masdar” şirkətidir. Bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici, açıq ölkədir;

”Azərbaycanda çox gözəl investisiya iqlimi vardır. Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, imkan verdi ki, enerji sahəsində də istədiyimizə nail olaq;

”Azərbaycan xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Azərbaycanın dörd qonşu ölkəyə ixracı artıq təmin edib. Gələcəkdə ölkəmiz digər bazarlara da elektrik enerjisi ilə çıxacaq;

”Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var;

”Hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, 385 meqavat generasiya gücü isə artıq yaradılıbdır. Yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən ”ACWA power” şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında ”Azərenerji” tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur;

”Bərpaolunan enerji növlərinin inkişafı Azərbaycan üçün prioritet məsələdir. 2023-cü ildə əlavə güclər Azərbaycanın ümumi sisteminə daxil ediləcək və bu işin başlanğıc hissəsidir. Bütün bunlar Azərbaycanı nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısına çevirəcəkdir;

”Qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Azərbaycan elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edir - təbii qaz, su, günəş və küləkdən ona görə də bu sahədə əməkdaşlıq etməyə maraqlı olanlar çoxdur.

”İşğaldan azad edilmiş ərazilər böyük potensiala malikdirlər. artıq dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər;

”Qısa müddət ərzində görülmüş işlər Azərbaycanın iqtisadi potensialından xəbər verir. Keçən il 4 su elektrik stansiyası bərpa olunub. Onların ümumi generasiya gücü 20 meqavatdır. Cari il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır.

”Azərbaycanın sənaye və iqtisadiyyatı durmadan inkişaf edir. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7%, qeyri-neft sektoru 10,1%, qeyri-neft sənaye istehsalı təxminən 21% artmışdır. Bütün bunlar postpandemiya dövründə əldə edimiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində fasiləsiz addımlar atılır.

”Elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. 10 min kvadratkilometrdən çox olan azad edilmiş torpaqların bərpası ölkəmizin dayanıqlı inkişafını təmin edəcəkdir;

”Bunlar Azərbaycanın dayanıqlı inkişafını təmin edən başçlıca amillər olaraq 3 əsas bazaya söykənir:

Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir; Müasir infrastruktur vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir; Güclü siyasi iradə vardır. Bütün bu amillərin vəhdəti ölkəmiz üçün çox gözəl bir imkanlar yaradır.

Beləliklə, dünyanın təlatümlərlə xarakterizə olunan indiki mərhələsində ölkəmizin iqtisadi inkişaf strategiyasına yeni-yeni təşəbbüslərlə əlavələr etməkdə davam etməsi, nəinki onu regionun lider dövlətinə çevirmiş, hətta ”İnkişafın Azərbaycan modeli” kimi brendini təmin etməkdədir.

# Ermənistanda baş qərargah rəisləri niyə corab kimi dəyişdirilir?

ANALİTİK








44 günlük müharibədəki ağır məğlubiyyətlərindən sonra Ermənistan ordusunda başalıb gedən özbaşınalıqlar və ordudaxili münaqişələr, rəhbərliklər arasında ziddiyyətli fikirlər və kiçik komandanlıqlar arasındakı qarşıdurmalar hələ də həmin istiqamətdə əsaslı işlərin aparılmadığını, əslində isə ordunun çöküşə doğru enməsini sübut etməkdədir. Son dövrlərə qədər müdafiə nazirlərinin və baş qərargah rəislərinin corab kimi dəyişdirilmələri isə artıq ənənə xarakteri daşımaqdadır. Hətta yeni müdafiə naziri postuna Nikol Paşinyana ən yaxın olan şəxslərdən birinin seçilməsi də vəziyyəti dəyişdirə bilmir ki, bu da nəticə etibarı ilə ordudaxili hərc-mərcliklərin daha da çoxalmasına kifayət qədər zəmin yaratmaqdadır.

**Ermənistan silahlı qüvvələrində baş qərargah rəisi vəzifəsinə təyin olunmağa adam tapılmır**

## Artak Davtyanla bağlı baş verənlər də belə qənaətə gəlməyə zəmin yaradır ki...

Digər tərəfdən, erməni ordusunun müxtəlif hərbi hissələrində qida və ərzaq çatışmazlığından tutmuş hərbi təchizatlarla, silah-sursatlarla təminolunma məsələlərinə qədər baş verən çatışmazlıqlar, habelə hərbçilər və zabitlər arasında silahlı qarşıdurmalara qədər gedib-çıxan mübahisələr, sui-qəsd və qətl hadisələri vəziyyətin nə qədər gərgin olduğundan xəbər verməkdədir. Və bütün bunların fonunda Ermənistan silahlı qüvvələrinin baş qərargah rəislərinin vəzifələrindən uzaqlaşdırılmaları, daha sonra isə onlara qarşı təqib və təhdidlərin edilməsi isə qeyd edilən faktların sübutu kimi də qiymətləndirilə bilər. Misal üçün, baş qərargahın sabiq rəisi Artak Davtyanla bağlı baş verənlər də belə qənaətə gəlməyə zəmin yaradır ki, erməni ordusu demək olar ki, yox səviyyəsindədir və bu gün onların arada-bir hansısa təlimlərini əks etdirən süjetlər yaymaları sadəcə baxış bucağını dəyilşməyə yönəlmiş spekulyasiyalar kimi qiymətləndirilə bilər.

## Bu haqda yazan "Hraparak" baş sabiq qərargah rəsinin susmayacağı qənaətinə gəlib

Bu arada, "Hraparak" - erməni qəzetinin yazdığına görə, Ermənistan silahlı qüvvələrinin keçmiş baş qərargah rəisi Artak Davtyanın vəzifəsindən uzaqlaşdırılması ilə bağlı rəsmi məlumat verilmədi.

SİA xəbər verir ki, bu haqda yazan "Hraparak" baş sabiq qərargah rəsinin susmayacağı qənaətinə gəlib. "Davtyanın yaxınlarından biri bizə danışdı ki, Davtyanın özü daha əvvəldən istefaya getmək istəyib, o yaxın ətrafına şikayət edirdi ki, ordunu dağıdırlar, lakin onun özünü belə desək, girov qismində saxlayırdılar və müqavimət göstərəcəyi halda cinayət məsuliyyətinə cəlb ediləcəyi bildirilirdi", deyə erməni qəzeti yazır.

Nəşrin yazdığına görə, Davtyan yaxınlarına deyib ki, ona "iş qurublar". Lakin hansı məsələ ilə bağlı olduğunu mənbə adıçəkilən nəşrə deyə bilməyib və eyham vurub ki, Davtyana qarşı cinayət işi hazırlanır.

"Hraparak" onu da xatırladır ki, Artak Davtyana keçmiş müdafiə naziri David Tonoyanla bağlı ittiham irəli sürülüb. "Davtyana yaxın olan şəxs təsdiq edir ki, onun silahlı qüvvələrin baş qərargah rəsini vəzifəsindən istefaya getməsindən sonra başqa vəzifə təklif olunub, lakin o buna razılıq verməyib.

"Biz Davtyanla söhbət edə bilmədik, belə ki, istefasından sonra onunla əlaqə qurmaq mümkün deyil. Lakin göründüyü kimi, əgər bu məlumatlar onun ətrafından yayılırsa, bu o deməkdir ki, yaxın günlərdə özü də danışa və narazılığı barədə bəyanat verə bilər", deyə yazan erməni nəşri onu da xatırladıb ki, bugünə qədər silahlı qüvvələrin baş qərargah rəisi təyin olunmayıb və bu vəzifəni müvəqqəti olaraq icra edən müavin Koçuntsdur.

Bu fakt isə həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, artıq həmin vəzifəni icra etmək üçün sadəcə adam tapılmır. Silahlı qüvvələrdə təmsil olunan heç bir yüksək rütbəli zabit bərbad vəziyyətdə olan ordunun rəhbərlik strukturunda təmsil olunaraq çirkablara bulaşıb, həyatını məhv etmək marağında deyil.

*Rövşən RƏSULOV*



İLHAM

# Onu əsəbiləşdirmək olmaz!!!

***Məşhur fransız yazıçısı və dramaturqu Onore de Balzak deyirdi ki, "Bu sərsəm, sərsəm dünyada hamı özünü ağıllı hesab edir. Çünki bu günə qədər kimsə deməyib ki, "mən dəliyəm". Haqlıdır, həqiqətən də yaşadığımız cəmiyyətdə hər kəs özünü ağıllı və uzaqgörən, hətta müdrik şəxsiyyət hesab edir. Danışığında səhv tutub, iradını bildirsən, hərəkətlərinə narazılığını nümayiş etdirsən, səni peşman edər. Açıqca deyər ki, "get tullanmağının dalınca, yəni sən məndən çox bilirsən?".***

Başlayacaq sadalamağı ki, filan yerdə təhsil almışam, filan qədər kitab oxumuşam, sosial şəbəkələrin ulduzuyam və filan sayda da dostluğumda insan var. Təbii ki, sən də dildən pərgar, qoldan qüvvətli, ağıldan isə bir qədər kəm olan bu məxluqa dərs keçməyə, ağıl verməyə həvəsli olmayacaqsan. Çünki əsəbləşsə, işin fəna ola bilər. Sadəcə, dodağının altında mızıldanıb, çıxıb gedəcəksən işinin-gücünün dalınca. Ağlında, şüurunda, düşüncəsində problemlər olan məxluqlar var ki, onlar siyasətdədirlər, vəzifə sahibidirlər, kisə-kisə pulu-paraları var, bunlar daha qorxulu və vahiməlidirlər. Belələrinə kütlənin gücü çatmaz, polis, prokuror da yanından yel olub keçə bilməz. Onları ancaq Allahın bəlası sıradan çıxarıb, məhv edir.

Deyək ki, bir də görürsən ipə-sapa yatmayan, meydan sulayan bir piylənmiş vəzifə mənsubu və ya harınlamış pul-para sahibi adi bir səhvinin qurbanı olur. Halbuki, o xırda səhvinə qədər çox həngamələr törədib, ailələr dağıdıb, insanların sakit həyatını pozub, cəmiyyətin inkişafına, dövlətin imicinə ləkələr vurub, amma ona gözün üstə qaşın var, deyən olmayıb. Bir gün adi görünən xırda səhvinin qurbanı olur. Beləliklə də vəzifədən uzaqlaşdırılır, obyekti, biznesi əlindən alınır və göndərilir düşmənə belə arzu edilməyən zindana.Elə qoca siyasətçi qurdlar da var ki, otururlar haradasa, nəyinsə başında başlayırlar milli ədavəti qızışdırmağa, xalqları, dövlətləri aşağılamağa. Misal olaraq başdan xiyar Rusiya liberallarının rəhbəri Vladimir Jirinovskini göstərmək olar. Tipik Rusiya siyasi çevrəsinə xas xüsusiyyətə malik olan bu məxluq qocalığında müdrik olmaq əvəzinə sayıqlayır. Bir növ daley-daley edir. Bəlkə də anadan olandan 50-60 gün sonra başından ağır travma alıb. Fakt isə ondan ibarətdir ki, atası içki düşkünü olduğundan ailədə tez-tez dava salıb, evdəkilərə divan tuturmuş. Bu baxımdan, Vladimirin uşaqlıq həyatı çox ağır və fəlakətli keçib. Onun gənclik illərindən bu günə qədər sayıqlaması da, uşaqlıq həyatından qalma travmadır. Digər tərəfdən babalı deyənin boynuna, AMİP lideri Etibar Məmmədov and-aman edir ki, V.Jirinovskini Türkiyədə zorlayıblar. Hansı şəraitdə, nəyə görə zorlandığını deyə bilmərəm, amma görünən odur ki, Jirinovski tez-tez başıqırxıq rus gəncləri ilə saunalarda dolaşır. Orada nə iş görürlər, nədən danışırlar, onu da deyə bilmərəm, ancaq şübhələr var, həm də "od olmasa, tüstü çıxmaz" deyiblər.

Nə isə, əvvəllər fərdlərə şər və böhtanlar atan V.Jirinovski siyasətə gəlib, saunalarda başı qırxıq rus gənclərinin "qəhrəmanı"na çevriləndən sonra, xalqları, dövlətləri hədəf seçdi. Hitlersayağı çıxışlarında dövlətləri işğal etməyin vacibliyindən dəm vuran bu üzdəniraq simasız, Avropaya, ABŞ-a atom bombası atmağın vacibliyindən söz açırdı. Arada bir Türkiyəyə, Azərbaycana qarşı sərsəm ittihamlar və iddialar da irəli sürür. Deyir ki, işğaldan azad edilən Qarabağı Rusiyaya birləşdirməli və Ermənistanı xilas etmək üçün Azərbaycanı Rusiyanın əyalətinə çevirməliyik. Belə açıqlamaları ilə Jirinovski regionun ən qüdrətli dövləti olan Azərbaycana təzyiqlər etmək, hansısa arzularını reallaşdırmaq istəyir, təbii ki, Kremilin qaranlıq dairələrinin planları əsasında. Ancaq mənasızdır.

Azərbaycanı heç bir kənar qüvvə öz hədəfindən yayındıra bilməz. Sərsəm açıqlamalarla, mənasız iddialarla da siyasi istək və tələblərə boyun əydirə bilməz. "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" deyiblər. Necə ki, 44 günlük Vətən müharibəsində üstümüzə hürən erməni faşizminin başını dəmir yumuruqla əzərək torpaqlarımızı işğaldan azad etdik. Ona görə də, Jirinovski və onun kimilər hürə-hürə qalacaqlar. Onların sərsəm fikirləri əvvəlkilər kimi sabun köpüyü olub havaya sovrulacaq. Ancaq bu halda bir məqam unudulmayacaq. Bütün mümkün vasitə və üsullardan istifadə etmək lazımdır ki, uşaq ikən insan travma almasın. Jirinovski uşaq olarkən travma aldığından, onun ağır fəsadlarını yaşayır və yaşayacaq, bədbəxt

# Yaradılış bayramının həqiqi mahiyyəti- II YAZI

**Novruz bayramı tarixdə ilk dəfə olaraq Nərimanov tərəfindən 1921-ci ildə Azərbaycanda rəsmi dövlət bayramı elan edilib**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

Əvvəli burada - https://sia.az/az/news/media/939551.html

**II HİSSƏ**

Od çərşənbəsində insanlar səhər tezdən hündür bir təpənin üstündə tonqal qalayar və həmin tonqalın dövrəsinə toplaşaraq Günəşin doğmasını gözləyərmişlər. Elə ki, Günəş doğdu, hamı xorla təbiətin bu "odlu qızı"nı salamlayan "Qodu xan" nəğməsini oxuyar, tonqalın başında dövrə vurar, sonra da hərə öz məşəlini yandırıb ocaqlarını alışdırmaq üçün evlərinə tələsərdilər. Tonqalın başına fırlandıqca oxuyarmışlar:

Ey Qodu xan, Qodu xan,
Yandır bizim odu, xan!
At üstə qod gətir,
Ulusa od gətir
Sözü bal Qodu xan,
Özü al Qodu xan.

Torpaq çərşənbəsində həm də qəbiristanlıqlara və müqəddəs yerlərə ziyarətə gedir, ata-babaların əziz ruhunu şad etmək və ehtiram bildirmək üçün məzarların üzərinə bayram payı düzülür, ətrafında məşəllər və şamlar yandırılır. Bu qədim ənənəni Tovuz televiziyasında çalışarkən apardığımız çəkiliş zamanı Düz Qırıqlı kəndində müşahidə etmişəm. Bu cür səhnələr bizə Dədə Qorqud dastanlarından da tanışdır. Amma təəssüf ki, bəzi qədim rituallara indi az yerdə təsadüf olunur.

Müqəddəs günlərin çərşənbə axşamı seçilməsinin isə mahiyyəti bundan ibarətdir ki, qədim şərq dini-fəlsəfi biliklərinə əsasən, Tanrı dünyanı yaradanda həftənin ilk günündə hazırlıq işlərini görmüş, ikinci gün (çərşənbə axşamı) yaratmağa başlamışdı: üçüncü gün su, dördüncü gün od, beşinci gün torpaqla bağlanan varlıqları yaratmış; altıncı gün yaranışların hamısına ruh (can) vermiş, yeddinci gün isə istirahət etmişdi. Bu inama görə, bütün İlahi yaradıcılıq işlərinin bünövrəsinin qoyulması çərşənbə axşamına düşür.

### Mənəviyyat, və humanizm bayramı

Novruzun nə dərəcədə sülh, humanizm, mərhəmət bayramı olması onun süfrəsindən də aydın olur. Novruz süfrəsində ət yeməkləri olmamalıdır- yəni, qan tökülməməli, heç bir canlı qida məqsədilə öldürülməməlidir. Bu bayramda nəinki insanlar daha mehriban olmalıdır, həm də heyvanlara qarşı mərhəmət göstərilməlidir.

Novruzun öz spesifik süfrəsi var. Novruz yeməklərin şahı təbii ki xalqımızın kulinariyasında ən dəyərli yemək sayılan aşdır. Novruz aşı xüsusi formada müxtəlif meyvə qurulardan ibarət qara ilə bəzədilir və ətrafına şamlar düzülür. Bundan əlavə, hər evdə Novruz xonçası hazırlanır. Bu xonça xeyli çeşiddə meyvələr, şirnilər, qoz-fındıq boyanmış yumurtalar və s. nemətlərlə bəzədilir, kənarında şamlar yandırılır. Yeri gəlmişkən, yumurta həyat rəmzi sayılır və onun boyanması həyatın çalarlarına işarədir.



Novruz xonçası düz süfrənin ortasına qoyulur. Xonçanın mərkəzində isə, bu bayramın əsas atributlarından biri olan bərəkət rəmzi Səməni olur. Səməninin ta qədimdən bəri Azərbaycan xalqının müqəddəs rəng hesab etdiyi qırmızı rəngli sarğı ilə əhatələnməsi də təbiidir. Qırmızı Tanrıya sevginin, müsbət enerjinin, xeyir quvvələrin və toy-bayramın rəngidir.

Çox təəssüf ki, minilliklər keçdikcə bəzi qədim bayramlarımız və digər mədəniyyət elementlərimiz unudulub, yaddan çıxıb. Məsələn, oktyabrın 8-i Xvarna (bolluq-bərəkət) bayramıdır, amma bu bayramı çox təəssüflər olsun ki, hazırda qeyd etmirik.

Professor Azad Nəbiyev deyir ki, bayramlar xalqın ritual və mərasim folklorunun ən əsas göstəricisidir. 40-a yaxın bayramı olan xalqımızın tamam unudulub gedən mərasimləri də var, unudulmaqda olanı da: "Hələlik milli bayramlarımızın 3 tipindən danışmaq mümkündür. Birincisi, mövsüm mərasimləri, yəni, əmək həyatının başlanması, ilin fəsilləri ilə bağlı keçirilən bayramlardır. İkincisi, məişət həyatını əks etdirənlərdir, üçüncüsü isə, dini bayramlardır".

Bütün bu bayramların, adət-ənənələrin zirvəsində qədimliyimizi, ucalığımızı, idrakımızın ənginliyini, ruhumuzun bütövlüyünü özündə yaşadan Novruz bayramı durur. Novruzda Zərdüştlükdən gələn xeyirin şər üzərindəki qələbəsinə inam yaşayır, təsdiq olunur. Yəni, Tanrının xeyir və şər enerjisi arasındakı mübarizədə hansı tərəfin qalib gəlməsi insanların özündən asılıdır.

### Səməd Vurğunun kəndində unikal Novruz mərasimləri

Bahar bayramının atrubutları da zəngindir- "Atıl-Batıl", "Kosa-kosa", "Yeddiləvin", "Səməni", "Cıdır", "Od qalama və üstündən atılma", "Axar su başına getmə və su üstündən atılma", "Evə təzə il suyu gətirmə", "Qulaq falına çıxma" və s. kimi adətləri bu gün Azərbaycanda və digər yerlərdə yaşadılmaqdadır.

Novruz insanları azı 1 ay xoş əhval-ruhiyyədə və həm fiziki, həm də ruhi cəhətdən təmiz formada saxlayır. Çərşənbələrdə hamı bir-birinə pay-püsk aparır, qonaq gedir bayramlaşırlar. Bu ay ərzində ancaq xoş sözlər danışır, xeyir işlər görülür, küsülülər zorla olsa da barışdırılır.

İnsanlar çərşənbə və böyük bayram axşamı məşəllərlə və toybayramla çöllərə çıxır, elliklə gəzinti keçirir şənlənirlər. Cavanlar evlərin qapısına papaq atırlar, ev yiyəsi də onların bayram payını qoyur papağın içinə. Bu bayramda qapı pusma, səhərədək çillə keçirilməsi və s. zəngin adət-ənənələr var ki saymaqla qurtarmaz.

Kosa, bahar qız və keçəlin ifasında nümayiş etdirilən tamaşalar isə bəlkə də dünyanın ilk xalq teatrıdır, təbiət hadisələrinin dramatikləşdirilmiş formada səhləşləşdirilməsidir.

Maraqlı bir məsələ də Novruz deyimləri ilə bağldır.

Dərvişlər ay dərvişlər
Haqq üzünü görmüşlər
Verin bizim payımızı
Aparaq verək ustada
Ustad yesin ad eləsin
Tanrı sizi şad eləsin.

Təkcə bu bənd göstərir ki, ta qədimdən Tanrı aşiqləri adlanan dərvişlər diyar-diyar gəzib Tanrıya sevgi təbliğ edər, insanlara ruhi biliklər bəxş edər, məbədlərdə ibadət və elmlə məşğul olan ustadlara xalqdan bayram payı aparırlarmış. Ustad bu payı qəbul edib ad verirmiş. (Burada Dədə Qorqut dastanı yada duşur.) İnama görə, ruhani ustadı sevindirməyə və ona xidmətə görə Tanrı o pay sahibini şad edərmiş.

Yeri gəlmişkən, hazırda Novruzun ən qədim koloritləri, zəngin adət-ənənələri ilə birlikdə keçirilməsinə Səməd Vurğunun doğulduğu kənddə- Qazax rayonunun Yuxarı Salahli kəndində də rast gəlmək olur. Bayram martın 21-dən 22-nə keçən gecə bu kənddə o qədər maraqlı adətlər və zəngin ənənələrlə keçirilir ki, sanki qədim dövrlərə düşmüsən. Hər il buraya ölkəmizin hər yerindən qonaqlar gəlir ki, bu gecəni canlı seyr etsinlər.

Bu sətirlərin müəllifi də hələ 15 il öncə Novruz gecəsini həmin kənddə keçirib, həmin kənddə təşkil olunan mərasimlərlə bağlı kiçik bir televiziya filmi çəkə bilib. Ümumiyyətlə, orada təşkil olunan mərasimlər tam bir kitablıq söhbətdir. Düsünürəm ki hələlik itirilməyən ən qədim elementləri özündə cəmləyən bu mərasimin araşdırılması ilə tarixçilərimiz və folklorsunaslarımız ciddi məşgul olsa yaxşıdır.

### Novruz 1921-ci ildə rəsmi dövlət bayramı kimi təsdiq olunub

Sovet dövründə də xalqımız bu qədim bayramı unutmayıb, onu elliklə qeyd ediblər. Nəinki Azərbaycanda, hətta azərbaycanlıların kompakt yaşadığı Ermənistan, Gürcüstan kimi respublikalarda belə Novruz bayramı həmişə elliklə kecirilib və bu bayramın qeyd edilməsi qadağan olunmayıb.

Novruz bayramı tarixdə ilk dəfə olaraq Azərbaycanda rəsmi dövlət bayramı elan edilmişdir. Belə ki, respublika rəhbəri Nərimanovun təşəbbüsü ilə Novruz bayramı 1921-ci ildə ilk dəfə dövlət səviyyəsində qeyd edilmiş və həmin gün qeyri-iş günü elan edilmişdir.

1931-ci ilə kimi Novruz Azərbaycanda dövlət bayramı kimi qeyd edilmişdir və yalnız sözü gedən tarixdən sonra rəsmi dövlət bayramları siyahısından cıxarılmışdır. Ermənilərin davamlı təbliğatı ilə bunu dini bayram kimi göstərirdilər, o üzdən dünyəvi dövlət olan SSRİ öz ideologiyasının ziddinə gedib dini bayramı dövlət bayramı kimi rəsmiləşdirə bilməzdi. Lakin sonra, xalqımızın layiqli oğulları, xüsusən də Şıxəli Qurbanov bunun dini bayram olmadığını izah etdilər və Bahar bayramını yenidən dövlət səviyyəsində keçirildi.

Müəyyən müddət dövlət bayramı kimi keçirilmədiyinə baxmayaraq, bu bayram hər zaman xalq tərəfindən acıq bir şəkildə, hec kəsdən gizlədilmədən tam sərbəst surətdə qeyd edilmişdir. Xalqımız hər zaman Novruzu sərbəst şəkildə təntənəylə qeyd edirdilər, kinolarımızda Novruz şənlikləri verilər, ədəbiyyatda geniş yer alar, məktəb kitablarında Bahar bayramıyla bağlı şeirlər dərc olunardı.

Əvvəllər Səməni satmazdılar, hər kəs öz evində, öz əli ilə Səməni göyərdərdi. Çünki, Səməni evin, yurdun bolluq və bərəkət rəmzi sayılırdı. Son vaxtlar bayramın bəzi adətləri, ritualları unudulsa da, hələ ki əsas mahiyyətini saxlayır.

Bu bayramı radikal dinçilərin ləkələməyə çalışması da uğursuzdur. İddia olunur ki, guya bu, Tanrıya şərik qoşmaqdır. Guya, min illərdir hamı axmaq imiş və Odu Tanrı hesab edirmiş. Əslində, bu iddialar bayramın mahiyyətini anlamayan mövhumatçılar tərəfindən irəli sürülür, normal dindarlar bahar bayramını layiqincə qeyd edirlər. Xurafatçılar isə, anlamır ki, insanlar odu, işığı, Günəşi Tanrı kimi qəbul etməyib, ona Yaradanın yaradılışda ən güclü enerjisi kimi ehtiram göstəriblər. Ehtiram və sitayiş tamamilə fərqli anlayışlardır.

Novruz bayramı birmənalı olaraq, yaradılışın ad gününü, dünyanın yaranması və insanlara bəxş olunan nemətlərə görə Tanrıya minnətdarlığı özündə ehtiva edir. Ən qədim vətəni Azərbaycan olan Novruz bayramı elə bir zəngin xəzinədir ki bəşəriyyətə bundan qədimi və bundan möhtəşəmi hələ məlum deyil. YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınan bu bayram Yaradılış, İnsanlıq, Mənəviyyat, Sülh və Humanizm bayramı kimi dünya xalqlarının mədəniyyət xəzinəsində ən önəmli yerini saxlayır.

***Elçin Bayramlı***

ARAŞDIRMA

SON SƏHİFƏ
Səs
18 mart
2022-ci il

# Bu bitki
## sizi qocalmağa qoymayacaq...

Yüz illər boyu zirincin müalicəvi təsirindən faydalanan insanlar onun əvəzedilməz təsir gücünə sahib olduğunu bilirlər. Müasir tibb təbabəti də zirincin möcüzəvi bitki olduğunun təsdiqləyir. Çində 700 ildən bəri müxtəlif xəstəliklərin müalicəsində zirincin faydasının görən həkimlər bütün dünyanın diqqətini bu bitkiyə çəkmişlər. Nəticədə isə ötən əsrin tibb təbabəti zirincin insan orqanizminə nə qədər faydalı olduğunu tam təsdiq etmişdir.

**1**. Zirinc orqanizmin qocalmasının sürətini azaldır. Onun lifli quruluşu və antioksidant tərkibi orqanizmdə sərbəst radikalların təsirini azaldır və dərini gəncləşdirir.

**2**. Zirinc psixoloji problemlərin aradan qalxmasında yardımçı olur və uzun müddər qəbul etdikdə depressiya əlamətlərini aradan qaldırır.

**3**. Zirinc tərkibində olan C vitamini sayəsində orqanizmin bu vitaminə qarşı olan tələbatını ödəyir və müqaviməti artırır.

**4**. Zirinc tərkibində olan 19 müxtəlif amin turşusu ilə əzələlərin möhkəmlənməsinə yardım edir, orqanizmdən artıq yağların xaric olmasını sürətləndirir.

**5**. Bu meyvə mədə-bağırsaq fəaliyyətini sürətləndirməklə həzm sistemini normallaşdırır. Gün ərzində zirinc dəmləməsini içənlər onun faydasının görə bilərlər.

**6**. Zirinc cinsi hormonların fəaliyyətinin artırmaqla sonsuzluğun aradan qalxmasında yardımçı olur. Onun gündəlik qəbulu sperma hüceyrələrini canlandırır.

**7**. Çində həkimlər II dərəcəli şəkərli diabet xəstələrinə hər gün zirinc qəbul etməyi tövsiyə edirlər. Çünki onun qanda insulin və şəkəri normallaşdırmaq kimi bir xüsusiyyəti var.

**8**. Zirinc qanda xolesterolun miqdarını azaldır.

**9**. Zirincin tərkibində A vitamini, beta karotin, zeaksantin olduğuna görə gün ərzində bir ovuc qəbul etmək gözün görmə qabiliyyətini artırır.

**10**. Zirinc orqanizmdəki yorğunluğu və halsızlığı aradan qaldırır və enerjini artırır./milli.az



# Jerar Depardyö İstanbulda balıqçı gəmisində yaşayacaq

2013-cü ildə Rusiya vətəndaşlığını qəbul etmiş fransalı aktyor Jerar Depardyö bundan sonra vaxtının böyük hissəsini İstanbul və Dubayda keçirmək niyyətində olduğunu bildirib. SİA AZƏRTAC-a istinadən xəbər verir ki, 73 yaşlı məşhur aktyor iki böyük balıqçı gəmisi aldığını, bunlardan birinin Dubayda, digərinin isə İstanbulda olduğunu bildirib.

Jerar Depardyö artıq ömrünün böyük hissəsini mənzilə çevirdiyi bu gəmilərdə yaşayacağını deyib. Film çəkilişləri üçün Fransaya gedəcəyini, lakin doğulduğu ölkədə yaşamaq istəmədiyini bildirən aktyor Parisdəki üzüm bağlarını və evini də satışa çıxardığını bildirib. O, bundan sonra daha sakit ömür sürmək istədiyini deyib.



# Xəbərdarlıq: bu gün qar yağacaq



***Bakıda və Abşeron yarımadasında martın 18-də hava şəraitinin arabir yağıntılı olacağı gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, bəzi yerlərdə duman olacaq.***

Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu gecə 2-5° isti, gündüz 7-9° isti, Bakıda gecə 2-4° isti, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunundan 773 mm civə sütununa yüksələcək. Nisbi rütubət 75-85 % olacaq. Azərbaycanın rayonlarında sabah havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 0-5° isti, gündüz 8-13° isti, dağlarda gecə 5-10° şaxta, yüksək dağlıq ərazilərdə 16°-dək şaxta, gündüz 0-5° şaxta olacaq.

# Nikah şahadətnaməsi olmayan cütlüklər otellərə niyə buraxılmır?



**“Belə bir ənənə əslində sovet dövründən miras qalıb. Belə ki, o vaxt hotellərdə nikah şahadətnaməsi olmadan ər-arvad olsa belə, bir otaqda qalmağa icazə verilmirdi. Buna görə də ailənlə harasa istirahətə gedirdinsə, mütləq ”VVAQ” kağızın yanında olmalıydı. Görünür ki, bu ənənəni bir çox bölgələrimiz hələ də yaşadır. Əslində hoteldə gecələmək üçün hər bir vətəndaş xüsusi forma - gəliş vərəqəsini doldurur və orada öz şəxsiyyət vəsiqəsinə dair göstəricilərini: soyadı, adı, doğum tarixi, daimi yaşayış yerinin ünvanı və s. qeyd edir”. Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Fariz Əkbərov deyib.**

Onun sözlərinə görə, Azərbaycanda mehmanxanaların fəaliyyətini tənzimləyən hər hansı hüquqi-normativ akt yoxdur: Ölkədə qüvvədə olan qanunvericilikdə mehmanxanaların göstərdiyi qonaqlama xidmətindən istifadə edərkən xidmət istehlakçılarının təqdim etməli olduqları sənədlərin siyahısı öz əksini tapmayıb. Nikah şəhadətnaməsinin tələb edilməsi və bu səbəbdən xidmətin göstərilməsindən imtina edilməsi həmin şəxslərə qarşı ayrı-seçkilikdir.

Fariz Əkbərov sözlərinə belə davam edib: ”Yalnız mülki məcəllədə mehmanxanalarda əmlakın saxlanılması, qəbul edilməsi, əmlaka dəymiş ziyanla bağlı münasibətlər tənzimlənir. Digər məsələlərin tənzimlənməsi ilə bağlı isə normativ-hüquqi akt yoxdur. Bu mülki məcəllənin 450-ci maddəsi ilə tənzimlənir. Ancaq məcəllədə mehmanxana və istirahət mərkəzlərində əks-cinslərə otaq verilib-verilməməsi təsbit olunmayıb”.

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**